www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 oktyabr 2025-ci il Çərşənbə № 181 (8791) Qiymətı 60 qəpik

**Xəbər**

## Rusiya prezidentinə təbrik zəngi

yazısı səh.4-də

**Gündəm**

### MDB-nin müsəlman ölkəsində cümə sammiti



**Ekspert:** "İmzalanacaq sənədlər süqutunu yaşayan təşkilatı ayaqda saxlamaq cəhdidir"

yazısı səh.6-da

### Sumqayıt yenə erməniləri qorxutdu

yazısı səh.5-də

### Azad edilən QHT sədrləri istintaq altında

yazısı səh.3-də

### Paşinyan müharibə dövrünə niyə "məxfi" qrifi vurdu?

yazısı səh.8-də

### Azərbaycandakı milyonçuların açıqlanmayan siyahısı

yazısı səh.10-da

### Xəzərdən ölkəmizi hədəf alanlar

yazısı səh.11-də

### Paytaxtda qızıl mağazaları bağlanır

yazısı səh.10-da

### Tiflis iğtişaşlarına Bakıdan baxış

yazısı səh.11-də

### Etibarnamə ilə avtomobil idarə etmək dövrü bitir

yazısı səh.14-də

### Ruben Vardanyan Rusiyadakı biznesini satdı

yazısı səh.2-də

### Azərbaycanda İslam istiqrazları - kimlər qazanacaq?

yazısı səh.13-də

### Təhsil krediti alanlar geri ödəyə bilmir

yazısı səh.14-də

# TÜRK LİDERLƏRİN QƏBƏLƏDƏN DÜNYAYA MESAJLARI

Azərbaycan Prezidenti TDT-nin Zirvə Görüşündə hərbi təlimlər keçirməyi, Ərdoğan isə müdafiə nazirlərinin toplaşmasını təklif etdi



yazısı səh.9-da

# İşlətdiyimiz su daha "su qiymətinə" olmayacaq

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Tarif Şurasına müraciət edəcək; ekspert: "Yeni tarif qaydası əhalini qənaətə təşviq edir"

yazısı səh.3-də



Viktor Vodolatski

### "Aİ Bakıda çevriliş edə bilər" təhdidi

yazısı səh.4-də



### Misir Mərdanovdan "O ajdahadan bizdə niyə yoxdur" sualına cavab

yazısı səh.12-də



### Bakıdakı ingilis səfirin general-polkovniklə görüşü

yazısı səh.5-də


Dmitri Peskov

## Kremldən o zəngə reaksiya

**Kremlin mətbuat katibi Dmitri Peskov Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında baş tutmuş telefon danışığını əhəmiyyətli hesab etdiyini bildirib.**

TASS agentliyinə istinadla xəbər verir ki, Peskov bu barədə keçirdiyi brifinqdə məlumat verib.

Onun sözlərinə görə, Prezident İlham Əliyev həmkarı Vladimir Putinə zəng edərək onu doğum günü münasibətilə təbrik edib.

"Telefon danışığı zamanı bir sıra digər mövzular da müzakirə olunub. Bu, çox önəmlidir", - deyə Peskov vurğulayıb.

Qeyd edək ki, Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə telefonla əlaqə saxlayaraq onu ad günü münasibətilə səmimi qəlbdən təbrik edib.

## Əlilliklə bağlı yeni qayda nəyi dəyişəcək?



**Əlilliyin qiymətləndirilməsi yeni qaydada həyata keçiriləcək. Nazirlər Kabineti bununla bağlı "Əlilliyin qiymətləndirilməsi Qaydası"na dəyişiklik edib.**

Həmin dəyişikliyə əsasən, şəxsin əlilliyinin müəyyən olunması və ya bundan imtina barədə qərarlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən açıqlana (əldə edilə) bilər. Bu məlumatların Elektron Hökumət üzərindən açıqlanması həmin qərarların təqdim edilməsinə bərabər tutulacaq.

Son illər Azərbaycanda əlilliyin müəyyən edilməsinə aid həm qanunvericiliyə dəyişiklik və həm də soründürməçiliklə bağlı çoxlu şikayətlər eşidilib. Xüsusilə 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra belə şikayətlər etiraz aksiyaları ilə özünü göstərib. Bir çox müharibə veteranları həm Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, həm də başqa rəsmi qurumların qarşısında etiraz aksiyaları keçirərək döyüşlərdə müxtəlif xəsarətlər alsalar da, onlara əlillik statusunun verilmədiyini bildiriblər. Həmin 44 günlük müharibədə Azərbaycan tərəfdən 10 mindən çox şəxsin xəsarət aldığı bildirilsə də, onlardan cəmi 4 mindən çoxuna əlillik təyin edildiyi açıqlanıb.

Ekspertlər düşünür ki, yeni qayda bu sahədə bir elə dəyişiklik yaratmasa da, şəffaflıq məsələsinə müəyyən təkan verə bilər.

## Sabah Oqtay Şirəliyevin yerinə təyinat olacaq



**Oktyabrın 9-da, saat 10:00-da Respublika Diaqnostika Mərkəzi ASC-nin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcək.**

Yığıncağın gündəliyinə ASC-yə baş direktorun seçilməsi daxildir.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Kommersiya qurumlarının dövlət reyestrinin məlumatlarına əsasən, indiyə qədər Respublika Diaqnostika Mərkəzinə keçmiş səhiyyə naziri, oktyabrın 3-də vəfat etmiş Oqtay Şirəliyev rəhbərlik edib.

Mərkəz 2004-cü ildə dövlət qeydiyyatına alınıb. Onun nizamnamə kapitalı 2,415 milyon manatdır.

## AZAL-ın idarə rəisi 45 yaşında vəfat etdi



**"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) idarə rəisi vəfat edib. Bu haqda "Life at AZAL" səhifəsi məlumat yayıb: "Dərin kədər hissi ilə bildiririk ki, SƏTƏMM və Keyfiyyətə Nəzarət İdarəsinin rəisi Rəşad Haqverdiyev vəfat edib. O, mehribanlığı və peşəkarlığı ilə hər kəsin yaddaşında dərin iz buraxdı. Allah rəhmət eləsin, ailəsinə və yaxınlarına səbr diləyirik".**

Oxu.az-ın məlumatına görə, 1980-cı il təvəllüdlü R.Haqverdiyevin həyatını itirməsinə səbəb səhhətindəki problem olub.

# Keçmiş köçkünlərin Bakıdakı evləri kimlərə verilir?



**Ermənistanın hərbi təcavüzü nəticəsində doğma yurdlarından didərgin düşən on minlərlə məcburi köçkün uzun illərdir ölkənin müxtəlif bölgələrində salınmış qəsəbə və şəhərciklərdə məskunlaşıb. Vətən müharibəsindən sonra Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə köçkünlərin öz doğma torpaqlarına qayıdışı artıq mərhələli şəkildə həyata keçirilir.**

Doğma yurdlarına qayıdan insanların köçkün qəsəbələrindəki evləri və şəhərciklərdəki mənzilləri boşaldığından bu yaşayış obyektlərinin gələcək taleyi aktuallıq kəsb edir.

Mövzu ilə bağlı Modern.az-ın sorğusuna Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən bildirilib ki, işğaldan azad olunmuş ərazilərə ilk növbədə qəzalı və ağır şəraitdə - yataqxana, sanatoriya, yarımçıq tikililər kimi müxtəlif müvəqqəti məskunlaşma obyektlərində, eləcə də başqasına məxsus mənzillərdə müvəqqəti məskunlaşmış keçmiş məcburi köçkünlər köçürülür.

Qarabağa köç edən keçmiş məcburi köçkünlərin Bakı, Sumqayıt və digər şəhər və rayonlarda olan evləri müvəqqəti olaraq başqa məcburi köçkünlərə verilir. "Məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə inşa olunmuş və onların müvəqqəti məskunlaşdıqları yaşayış komplekslərindən köçürülmə çox az hallarda baş verir. Belə hallarda boşalmış mənzilin digər məcburi köçkün ailəsinə verilərkən, onların sosial statusu daha çox nəzərə alınır".



## Rusiyada Azərbaycan nömrələri işləmir

**Rusiyada xarici sim kartlarda mobil internet bağlanıb. Oktyabrın 6-dan başlayaraq, xarici nömrələrin istifadəçiləri mobil internetlərinin yoxa çıxdığını müşahidə edirlər.**

"AzPolitika" xəbər verir ki, Rusiya mediasının bildirdiyinə görə, problem MDB ölkələri də daxil olmaqla, bütün xarici operatorları əhatə edib. İnternetə giriş təkcə fiziki SİM kartlarda deyil, eSIM-lərdə də bloklanır.

Bununla belə, səsli zənglər və SMS işləməkdə davam edir. Xarici SİM kartlarda mobil internetin dayandırılması oktyabrın əvvəlindən başlayıb. Əvvəlcə tədbir Ukrayna ilə həmsərhəd bölgələrə aid idi, lakin indi analoji hallar bütün ölkə üzrə qeydə alınır.

## "Qarabağ" oyunçularına əlavə pul mükafatı verdi



**Çempionlar Liqasının ikinci turunda Danimarkanın "Kopenhagen" klubunu doğma meydanda 2-0 hesabı ilə üstələyən "Qarabağ" klubu oyunçularına əlavə mükafat verib. Bu barədə "Apasport" məlumat yayıb.**

Məlumata görə, "Qarabağ" klubu qələbəyə görə startda çıxan hər oyunçuya 70 min manat mükafat verib.

Oyuna sonradan qoşulanlar bu məbləğin 75 faizini, ehtiyatda qalanlar isə 50 faizini alıblar.

## Ruben Vardanyan Rusiyadakı biznesini satdı



**Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın Rusiyadakı biznesini tamamilə satdığı məlum olub.**

Vardanyan "Atom elektrik avtomobili" layihəsindəki payını sataraq Rusiya avtomobil sənayesini tamamilə tərk edib.

"Kommersant"a məlum olub ki, Vardanyanın "Kama"nın əsas səhmdarı olan"Vosxod" MMC-dəki 25%-lik payı şirkətin özünə keçib.

KamAZ-ın baş direktoru Sergey Koqoqin (37,5%) və Spektr MMC (37,5%) indi "Vosxod"un ortaq sahibləri olaraq qalır.

2024-cü ilin payızında Vardanyan KamAZ-ın ortaq sahibi olmaqdan da çıxmışdı. Mütəxəssislər hesab edirlər ki, erməni iş adamının layihəni tərk etməsi onun düşdüyü vəziyyətlə bağlıdır.

## İş adamı həbsxanada vəfat etdi

**Hədə-qorxu yolu ilə pul tələb etməkdə təqsirləndirilərək həbs olunan iş adamı Vahid Xələfov vəfat edib. "Teleqraf" xəbər verir ki, o, oktyabrın 6-da Ədliyyə Nazirliyi Penitensiar Xidmətin müalicə müəssisəsində dünyasını dəyişib.**

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Vahid Xələfov 14 il müddətinə azadlıqdan məhrum edilmişdi. Məhkəmə iş üzrə zərərçəmiş tərəf olaraq Nazirlər Kabinetinin İşlər İdarəsinin müdiri Hikmət Xəlilovu tanımışdı.

Vahid Xəlilova qarşı Cinayət Məcəlləsinin 182.4-cü ( Hədə-qorxu yolu ilə tələb etmə) maddəsi ilə ittiham irəli sürülmüşdü.

O, tikinti şirkətinin sahibi idi.

## Şəmkirdə arvadını öldürən tutuldu

**Şəmkirdə arvadını qətlə yetirməkdə şübhəli şəxs tutulub. Bu barədə Şəmkir Rayon Prokurorluğundan məlumat verilib. Bildirilib ki, oktyabrın 6-da saat 18 radələrində Şəmkir rayonu Şiştəpə kəndi ərazisində 1984-cü il təvəllüdlü Röyalə Hacıyevanın ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Araşdırma zamanı 1971-ci il təvəllüdlü Arif Hacıyevin bıçaqla xəsarətlər yetirməklə Röyalə Hacıyevanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Arif Hacıyev şübhəli şəxs qismində tutulub.

## Dövlət qurumlarına qarşı kiberhücum




**Üç rüb ərzində Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən kiberhücumların analizi nəticəsində 650 kiberhücum indikatoru müəyyən edilib.**

Bu barədə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən məlumat verilib.

Bildirilir ki, sözügedən kiberhücum indikatorlarının bloklanması nəticəsində dövlət qurumlarına qarşı hazırlanmış və xüsusi hədəflənmiş APT kiberhücumlarının qarşısı alınıb. Bu kibertəhdidlərin 216-sı daxili araşdırma, 434-ü isə dövlət qurumlarının müraciətləri əsasında müəyyən olunub.

YENİ MÜSAVAT
N 181 (8791) 8 oktyabr 2025

# İşlətdiyimiz su daha “su qiymətinə” olmayacaq

## Ekspert: “Yeni tarif qaydası əhalini qənaətə təşviq edir”

**Su tarifləri ilə bağlı Türkiyə və Avropa ölkələrinin təcrübələri araşdırılıb. Bu ölkələrdə geniş tətbiq edilən mexanizmlərdən biri diferensial tarif qaydasıdır. Bunu Bakıda keçirilən II Milli Rəqabət Forumu çərçivəsində panel müzakirəsi zamanı Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi sədrinin müşaviri Əsəd Şirinov deyib.**

O qeyd edib ki, bu məsələ “Sudan səmərəli istifadə üzrə Milli Su Strategiyamız”da da öz əksini tapıb. Strategiyada hədəf kimi göstərilib: “Hazırda bu məsələnin təhlilini aparırıq. Təhlil başa çatdıqdan sonra müvafiq təklifimizi Tarif Şurasına təqdim edəcəyik”.

**Ə.Şirinov deyib ki, diferensial tarif əsasən aşağı gəlirli təbəqəni qorumağa xidmət edir:** “Yəni onlar üçün daha güzəştli qiymətlər tətbiq olunur. İkinci mərhələdə daha çox su istifadə edənlər üçün tariflər daha yüksək müəyyənləşdirilir ki, qənaət təşviq edilsin. Bundan əlavə, kommersiya subyektləri var ki, onlar sudan istifadə edərək gəlir əldə edirlər. Onlar üçün də ayrıca, fərqli tariflər müəyyənləşdirilir. Dünyada bu praktika geniş yayılıb. Bizim strategiyadakı araşdırmalarımızın da məqsədi məhz belə əsaslandırılmış bir təklifi hazırlayıb Tarif Şurasına təqdim etməkdir. Bu məsələ üzərində iş davam edir, hələ təklifimizi rəsmi olaraq təqdim etməmişik”.

**Ə.Şirinov qeyd edib ki, adətən diferensial tarif deyəndə insanlar qiymətlərin artacağını düşünürlər:** “Amma bu, əslində belə deyil. Əksinə, diferensial tarifin məqsədi aşağı gəlirli əhalini qorumaq, onlara güzəştli qiymətlər vermək, kommersiya və çox su istifadə edən obyektlər üçün isə tarifləri daha düzgün səviyyədə müəyyən etməkdir”.

**İqtisadçı Xalid Kərimli** “Yeni Müsavat”a mövzunu şərh edərkən bildirdi ki, söhbət aşağı, orta və yuxarı limitlərin müəyyənləşdirilməsindən gedir. **Onun sözlərinə görə, bu, qiymətin dəyişilməsinə birmənalı olaraq təsir edəcək:** “Tarif dəyişdikcə qiymət də limitə uyğun dəyişəcək. Limitlərin müəyyən edilməsi Tarif Şurasının səlahiyyətindədir. Bəlkə aşağı limit olduğu kimi qalar, amma orta və yuxarı limit qaldırıla bilər. İstənilən halda, qiymət fərqi olacaq. Önəmli olan həm də limitin həcmidir. O cümlədən, limitin aylıq və yaxud illik olması da önəmlidir. Məsələn, qaz üçün illik istehlak həcminin limiti 1200 kubmetr, işıq üçün isə 300 kVts müəyyən edilib. Odur ki, su istehlakında limitin aylıq və ya illik əsasda müəyyən ediləcəyi əsas suallardan biridir. Xüsusilə yay aylarında suya tələbat çoxalır, əhali də çox istifadə edir, suvarmada da ehtiyac artır. Bu baxımdan hesab edirəm ki, limitin illik müəyyən edilməsi məqsədəuyğun olar. Zaman-zaman limitlərin ləğv olunması ilə bağlı təkliflər səsləndirilsə də, hesab edirəm ki, bu, mümkün olmayacaq”

**Ekspert diferensial tarif qaydasının əleyhinə olmadığını qeyd edib:** “Artım olduqda bu, bütün növ limitlərə təsir etmir. Digər tərəfdən, diferensial tarif qaydası əhalini qənaətə təşviq edir. Limit ehtiyaca görə müəyyən edildiyinə görə ədalətli olduğunu düşünürəm. Kim sudan az istifadə edəcəksə, az ödəniş edəcək, çox istifadə edən də çox ödəyəcək. Bəzən insanlar düşünür ki, limit ləğv olunsa, qiymətlər aşağı həddə müəyyən ediləcək. Bu, belə deyil, adətən limit olmadıqda aşağı deyil, orta qiymətlər müəyyən edilir. Diferensiallaşma tətbiq edildikdən sonra qiymətin indiki kimi 0,70 AZN-dən aşağı müəyyən ediləcəyini zənn etmirəm, 0,70 AZN minimal hədd kimi qala bilər, amma daha yuxarı hədd də müəyyən edilə bilər. Hesabatlılıq şəffaf olmadığı üçün xərclərin artması ilə bağlı müfəssəl məlumat almaq olmur”.



Qeyd edək ki, son rəsmi açıqlamalara görə, Azərbaycanda su anbarlarında 16 milyard kubmetr həcmində su ehtiyatı mövcuddur. Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev Bakıda keçirilən 2-ci Beynəlxalq Su Təsərrüfatı Sərgi və Konfransı-"Baku Water Week" çərçivəsində təşkil olunan “Su idarəetməsində liderlik: Regional və qlobal perspektivlər” adlı panel müzakirələrində bildirib ki, hazırda ən aktual məsələlərdən biri ehtiyatlardan səmərəli istifadədir: “Su ehtiyatlarından düzgün istifadə etməyi bacarmalıyıq. Azərbaycan çayların aşağı axınında yerləşən ölkədir və buna görə də biz həmişə qonşularımızla su məsələsini gündəmdə saxlamalıyıq. Təəssüf ki, hər zaman tam razılığa gələ bilmirik. Çünki regionda yalnız Azərbaycan "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi haqqında" BMT Konvensiyasının üzvüdür, digər ölkələr isə üzv deyil və onlar çayların yuxarı axınında yerləşirlər. Su səbəbdən su məsələlərini daim diqqətdə saxlamalıyıq. Su idarəçiliyi həm milli, həm də regional yanaşma tələb edir. Bu səbəbdən su məsələləri müzakirə olunarkən yalnız ölkəni deyil, bütövlükdə regionu nəzərə almaq vacibdir. Region əməkdaşlığını daha güclü qurmalıyıq. Təəssüf ki, hələlik su istehlakında istədiyimiz səviyyəyə çata bilməmişik. Bu sahədə ciddi proqramlar hazırlayıb onların icrasına nail olmalıyıq".

Ötən həftə keçirilən Bakı İqlim Fəaliyyəti Həftəsi (BCAW2025) çərçivəsində də sudan səmərəli istifadə, istehlak zamanı qənaətə diqqət etmək kimi məsələlər diqqət mərkəzində olub.

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) Elm və İnnovasiyalar sektorunun müdiri Əliağa Əzizov qeyd edib ki, Azərbaycanda içməli su və suvarma infrastrukturunda itkilər və sızmalar mövcuddur:** ""Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın hədəflərindən biri 2040-cı ilə qədər bu itkilərin minimuma endirilməsidir. Bütün içməli su sistemlərində sayğacların quraşdırılmasına ehtiyac var".

**❑ Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**

# Azad edilən QHT sədrləri istintaq altında

## Hüquqşünas: “Yaşlarına görə həbsdən azad edilən şəxslər istintaq və ya məhkəmə mərhələsində cinayət məsuliyyətindən azad olunmur”

**Bir neçə gün öncə saxta orden və medallar, eləcə də müxtəlif təyinatlı vəsiqələr hazırlamaqda ittiham olunan bəzi QHT rəhbərləri barədə qərar verilib. Cebheinfo.az xəbər verir ki, saxlanılan şəxslərlə bağlı ilkin istintaq hərəkətləri aparılıb, izahatlar alınıb və prosessual tədbirlər başa çatdıqdan sonra onlar yaş və səhhət vəziyyətlərinə görə sərbəst buraxılıblar. Amma bu, onların məsuliyyətdən azad olunduğu anlamına gəlmir. Hüquqi baxımdan həmin şəxslər hələ də cinayət təqibi altındadırlar.**



Xatırladaq ki, oktyabrın 1-də “Azərbaycan Vətən Müharibəsi Veteranları” İctimai Birliyinin sədri Füzuli Rzaquliyev, “Dədə Qorqud” Xeyriyyə Fondunun rəhbəri Eldar İsmayılov və “Sabitlik və İnkişaf Mərkəzi” İctimai Birliyinin sədri Rasim Məmmədov saxlanılmışdı. DİN-in məlumatına görə, bu təşkilatların ofislərindən 1500-dən çox medal və orden, 421 vəsiqə, 60-dan artıq möhür və müxtəlif saxta sənədlər aşkarlanıb. Maddi sübutlar götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, əlavə hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə maddəsi ilə cinayət işi başlanılıb, Füzuli Rzaquliyev, Eldar İsmayılov və Rasim Məmmədov istintaqa cəlb olunublar. Yaşlarına görə barələrində həbslə əlaqəli olmayan qəti-imkan tədbiri seçilən QHT sədrləri istintaq altında qalır. Məhkəmədə bu maddə ilə ittihamla üz-üzə qalacaqları təqdirdə barələrində ittihamedici hökm çıxarılarsa, o halda hüquqi prosedur necə tənzimlənəcək?

**“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** “Yeni Müsavat”a deyib ki, yaşlarına görə həbsdən azad edilən şəxslər istintaq və ya məhkəmə mərhələsində cinayət məsuliyyətindən azad olunmurlar: “Sadəcə olaraq, həbs-qətimkan tədbiri onların yaş və səhhət durumuna görə ev dustaqlığı və ya heç bir qətimkan tədbiri olmadan istintaq altında qalmaq formasında dəyişdirilir. Azərbaycan Cinayət Məcəlləsinin 320-ci maddəsi dövlət təltiflərinin, möhür və rəsmi sənədlərin saxtalaşdırılmasını ağır cinayətlər sırasında göstərir. Bu maddəyə əsasən, belə əməllərə görə cərimə, müəyyən müddət azadlıqdan məhrumetmə və ya azadlığın məhdudlaşdırılması kimi cəzalar tətbiq olunur. Lakin burada maraqlı bir məqam var. Saxlanılan QHT rəhbərləri yaşlı şəxslərdir. Onların bəziləri 65-70 yaş aralığındadır. Bu, qətimkan tədbirinin seçilməsində mühüm rol oynayıb. Cinayət Prosessual Məcəlləsinin 157-ci maddəsinə görə, yaşlı və səhhətində ciddi problemləri olan şəxslər barəsində həbs-qətimkan tədbiri nadir hallarda seçilir. Bu səbəbdən istintaq orqanı həmin QHT rəhbərləri üçün ev dustaqlığı və ya sərbəst buraxılmaqla istintaq altında qalma variantını seçib. Yəni bu şəxslər hələ də istintaq nəzarətindədirlər, lakin azadlıqdan məhrum edilməyiblər. İstintaq materialları tamamlandıqdan sonra iş məhkəməyə göndəriləcək”.

**Natiq Ələsgərov deyib ki, əgər sübutlar yetərli olarsa, məhkəmə Cinayət Məcəlləsinin 70-ci maddəsini tətbiq etməklə şərti cəza tətbiq edə bilər:** “Cərimə və ictimai işlər kimi alternativ cəza tətbiq edə bilər. Məhkəmə həmçinin yaş və səhhət amilini nəzərə alaraq, CM 79 və 83-cü maddələrinə əsasən cəzadan təxirə salma və ya tam azadetmə qərarı da verə bilər. Lakin ittihamın məzmunu da nəzərə alınmalıdır. Burada söhbət dövlət atributlarının saxtalaşdırılması kimi ciddi bir əməldən gedir. Bu hal ağırlaşdırıcı amil kimi də qiymətləndirilə bilər”.

Qeyd edək ki, son illər QHT sektoru daxilində ictimai fəallıq görüntüsü altında müxtəlif saxta təltif və rütbə biznesinin geniş yayılması müşahidə olunur. Daxili İşlər Nazirliyi əməkdaşlarının həyata keçirdikləri bu əməliyyat bir daha göstərdi ki, vətənpərvərlik adı altında qurulan bəzi qurumlar faktiki olaraq saxtakarlıq mərkəzinə çevrilib.

**❑ E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**



## Rusiya prezidentinə təbrik zəngi

### Ekspertin proqnozuna görə, münasibətlərdə daha nəzərəçarpacaq yumşalma müşahidə oluna bilər

**Oktyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya dövlət başçısı Vladimir Putinə zəng edib. Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb. Bildirilib ki, dövlət başçısı Rusiya Prezidentini doğum günü münasibətilə təbrik edib. Vladimir Putin təbriklərə görə təşəkkürünü bildirib.**

Telefon danışığı zamanı Azərbaycanla Rusiya arasında əlaqələrin mövcud vəziyyətinə və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Tanınmış **iqtisadçı-professor, sabiq nazir Fikrət Yusifov** hadisəyə diqqətçəkən şərh verib. Professorun fikrincə, bu zəng iki ölkə arasında son aylarda müşahidə olunan “soyuq müharibə” ab-havasının yumşalmasına təkan verə bilər: “Münasibətlərin normallaşması istiqamətində ilk addımı Vladimir Putin atıb. O, Çində keçirilən görüşlər zamanı ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyevlə təmas qurdu. Həmin görüşün özü, eləcə də Putinin ona verdiyi müsbət qiymət bu prosesin başlanğıc nöqtəsi oldu. İlham Əliyevin ad günü zəngi həmin jestə cavab xarakteri daşıyır”.

Fikrət Yusifov onu da qeyd edib ki, bu cür təbriklər MDB məkanında liderlər arasında illərdir formalaşmış diplomatik ənənədir və Moskva ilə Bakı arasında rabitə kanallarının açıq saxlanması baxımından önəmlidir: “Vladimir Putin daha əvvəl də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik etmişdi. Bu cür qarşılıqlı jestlər münasibətlərin tonunu müəyyən edir və gərginlik fonunda müsbət siqnaldır”.

Ekspertin proqnozuna görə, iki ölkə münasibətlərində dekabrın 25-nə qədər, yəni Azərbaycan mülki təyyarəsinin Rusiya ərazisində vurulmasının ildönümünə qədər daha nəzərəçarpacaq yumşalma müşahidə oluna bilər: “Bu tarixə qədər tərəflər arasında emosional fonun daha sakitləşəcəyini və qarşılıqlı hörmətin bərpası istiqamətində addımların atılacağını görəcəyik”.

❑ **“Yeni Müsavat”**

# “Aİ Bakıda çevriliş edə bilər” təhdidi

## Dövlət Dumasının MDB işləri üzrə komitə sədrinin müavini Azərbaycan, Gürcüstan və Ermənistanı niyə qorxudur?

**Avropa İttifaqı (Aİ) Azərbaycan, Gürcüstan və Ermənistan dövlətçiliyini məhv etməyə çalışır və Avropanın xüsusi xidmət orqanlarının diqqət mərkəzindədir. Bunu TASS-a Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini Viktor Vodolatski deyib.**

Deputatın sözlərinə görə, Avropa İttifaqı istənilən postsovet dövlətinə ənənəvi dəyərlərin və tarixi əsasların məhv edilməsi aləti kimi baxır. Rusiyalı deputat iddia edib ki, “Ermənistan və Azərbaycan bir vaxtlar Ukraynanın sürüşməsinə səbəb olan eyni hərəkətlərə məruz qalacaqlar”. Vodolatski həmçinin əlavə edib ki, Avropa İttifaqı “yol kəsişməsində” digər ölkələrə qarşı da oxşar siyasət aparır və Ukrayna hadisələri region dövlətləri üçün bariz nümunəyə çevrilib.

Açıqlamadan da görünür ki, Rusiya ötən həftə Danimarkanın paytaxtı Kopenhagendə Avropa Siyasi Birliyinin (EST) 7-ci sammitində Azərbaycan, Ermənistan və Gürcüstanın iştirakından narahat olub. Zirvə Avropa Birliyinə üzv olmayan ölkələrlə siyasi dialoqun və əməkdaşlığın dərinləşdirilməsi üçün platforma rolunu oynayır. Sözügedən tədbirdə Avropada təhlükəsizlik məsələləri müzakirə edilib.

Bəllidir ki, Gürcüstanın baş naziri İrakli Kobaxidze hökuməti Avropa İttifaqının bu ölkədəki səfirinin Tiflisdəki iğtişaşlara görə məsuliyyət daşıdığını deyib. Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas və Avropa Komissiyasının genişlənmə üzrə komissarı Marta Kos oktyabrın 4-də Gürcüstanda keçirilmiş bələdiyyə seçkiləri ilə bağlı birgə bəyanatda rəsmi Tiflisi ittiham edib. Sənəddə Gürcüstanda oktyabrın 4-də yerli seçkilərin müxalifətin sıxışdırılması fonunda keçirildiyi bildirilib. Qeyd edilib ki, müxalifətin əhəmiyyətli hissəsinin boykotu səbəbindən seçkilər rəqabətli mühitdə keçirilməyib və seçici fəallığı nisbətən aşağı olub. “Biz seçkilərdən sonrakı dövrdə sakitliyə, təmkinliyə və hakimiyyəti vətəndaşların sərbəst toplaşmaq və ifadə azadlığı hüquqlarına hörmət etməyə çağırırıq”, - deyə bəyanatda bildirilib.



Yeri gəlmişkən, son məlumata görə, Aİ ölkələri rusiyalı diplomatların blok daxilində hərəkətini məhdudlaşdırmaq barədə razılığa gəlib. Məhdudiyyətlərin Rusiya əleyhinə sanksiyaların 19-cu paketinə daxil edilməsi təklif olunur. Macarıstan əvvəlcə bu təklifə qarşı çıxıb, lakin daha sonra vetosunu geri götürüb. Avropa agentliklərinin məlumatına görə, bəzi “Rusiya casusları” özlərini diplomat kimi təqdim edir və nəzarətdən yayınmaq üçün tez-tez öz ölkələrindən kənarda əməliyyatlar aparırlar.

Göründüyü kimi, Avropa işğalçı Rusiyanı cəzalandırır, onun deputatlarını “arzuolunmaz” adlandırır, Duma üzvləri də Qafqaz ölkələrini hədəfə alır, şantajlar və təhdidlər yağdırırlar.

Rusiyalı deputatın ritorikası çətin ki, siyasi kontekstdən kənarda sayıla bilər. Bu yorumlar, xüsusilə Azərbaycanla Aİ arasında münasibətlərin heç də həmişə hamar olmadığını nəzərə alsaq, doğrudur. Çünki Brüssel vaxtaşırı Bakının ünvanına tənqidi fikirlər səsləndirir, bir sıra Avropa qurumları isə sərt bəyanatlar verməkdən çəkinmirlər. Görünən budur ki, Rusiyadan Azərbaycanla Avropa təsisatı arasında təfriqə salmaq üçün növbəti davamlı şantajlara əl atılmaqdadır. Beləliklə, şimaldan külək əsdirənlər sakitləşmək bilmir. Bu, Aİ-nin həqiqətən də Azərbaycanın suverenliyini, ölkədəki sabitliyi pozmaq və ya zəiflətmək məqsədi daşıdığı deməkdirmi? Yoxsa bu cür ittihamlar regionda nüfuzunu itirən Rusiyanın geri çəkildikcə şübhələr toxumu səpmək üçün növbəti cəhdidir?

**Deputat Sahib Alıyev “Yeni Müsavat”a açıqlamasında bir sıra önəmli məsələlərə diqqət çəkdi:** “Dağılmaq və məhv olmaq təhlükəsi ilə o dövlət üzləşə bilər ki, birincisi, onun başında duranlar uzun əsrlər boyu yadellilər olublar, yaxud da o xalqa yadellilər dövlət qurublar. İkincisi, o özü digər dövlətləri dağıtmağa, məhv etməyə çalışır. Üçüncüsü, onları əməkdaşlığa maraqlandıracaq hər hansı layihə ortaya qoymaqdansa, qonşuları ilə hədə dilində danışmaqdan başqa müsbət heç nə etmək istəmir, təkəbbür göstərir, bu üzdən də "izqoy"a çevrilir. Söhbət Azərbaycandan gedirsə, şükürlər olsun ki, bizdə bunlardan heç biri yoxdur. Əksinə, dövlətimiz daha da güclənir, kimlərinsə təhriki ilə bizə qarşı uzun zaman düşmənçilik siyasəti yeridən Ermənistana sülh təklif edib, Macarıstanın xarici işlər naziri cənab Siyartonun təbirincə desək, Avropa liderləri indi Prezidentimizlə görüşmək üçün növbəyə dururlar". **S.Alıyev ardınca rusiyalı deputata sakitləşməyi məsləhət gördü:** “Yoldaş Vodolatski bizə görə narahat olmasın. Bu gün Qəbələdə nə baş verdiyinə baxsın, əgər hər hansı problemlə üzləşmiş olsaq, tək deyilik, qardaşlarımız var”. Sonda millət vəkili Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Vodolatskinin həmin komitədəki digər birinci müavin zatulinsayağı açıqlama verməsi ilə əlaqədar məntiqli sual ünvanladı: “Əcəba, birinci müavin olaraq bu adamların vəzifəsi həmin quruma üzv dövlətləri, qonşuları hədələmək, təhqir etməkdirmi?”

**Siyasi şərhçi Məhəmməd Əsədullazadə isə bildirdi ki, Cənubi Qafqaz ölkələrinin Avropa Siyasi Birliyində (ASB) iştirakı onların suveren haqqıdır:** “Rusiya Qafqaz ölkələrinin sammitdə iştirakına dözümlülük göstərmirsə, bu, Kremli problemidir. Ukraynada strateji məğlubiyyətə uğramış Rusiyanın bu üç ölkəni hədələməsi onların Moskvadan daha da uzaqlaşmasına gətirib çıxaracaq. ASB əməkdaşlıq və tərəfdaşlıq vəd edir, dövlətlərin suverenliyini təhdid etmir. Amma Rusiya ənənəvi təzyiq siyasəti ilə onların suverenliyini təhdid edir. Bu siyasət qəbulonmazdır. Ümumiyyətlə, Avropa Siyasi Birliyi Azərbaycanla münasibətlərə yüksək dəyər verir. Avropa İttifaqı Azərbaycanla uzun illərdir ki, tərəfdaşlıq edir”. **M.Əsədullazadə xatırlatdı ki, Azərbaycanın öz müstəqil siyasi gündəmi var:** “Cənab Prezident İlham Əliyev uğurlu şəkildə bütün təzyiqləri neytrallaşdırır. Ümumiyyətlə, ASB-nin Azərbaycanda nə inqilab etmək planı var, nə də potensialı. Rusiyalı deputat təxribatçı açıqlama verməklə əməkdaşlığa kölgə salmış olur. Ermənistanla Avropa arasında əməkdaşlıq normaldır. Gürcüstanda isə bunu edə bilmirlər. Azərbaycanla bağlı belə bir plan yoxdur”.

**Ekspert qeyd etdi ki, Rusiya uğursuz şəkildə siyasət aparır və təxribatçı fikirlər ortaya qoyur:** “Avropa İttifaqı Azərbaycanla enerji, iqtisadi və təhlükəsizlik sahəsində əməkdaşlığı dərinləşdirmək siyasətini həyata keçirir. Cənab Prezident Kopenhagendə yüksək səviyyədə qəbul olundu. Rusiyanın hazırkı siyasəti bir daha təsdiq edir ki, qonşularla normal əməkdaşlıq sisteminə malik deyil”.

❑ **E.PAŞASOY,
“Yeni Müsavat”**

# Bakıdakı ingilis səfirin general-polkovniklə görüşü

## Britaniya-Azərbaycan hərbi əməkdaşlığı dərinləşir

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Fergus Auldlə görüşüb. Bu barədə Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.**

Müdafiə naziri Azərbaycanla Böyük Britaniya arasında, digər sahələrdə olduğu kimi, hərbi sahədə də əlaqələrin xüsusi əhəmiyyət daşıdığını və bunun hər iki tərəfin ordusunun inkişafına töhfə verəcəyini bildirib. Fergus Auld isə öz növbəsində ölkələrimiz arasında əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə edib, əlaqələrimizin daha da inkişaf etdirilməsində bu kimi görüşlərin əhəmiyyətini vurğulayıb.

Krallığın ölkəmizdəki hərbi attaşesi 2-ci dərəcəli kapitan Gavin Tarbardın da iştirak etdiyi görüşdə tərəflər hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələləri müzakirə ediblər.

Azərbaycan dünyada bir sıra ölkələrlə hərbi əməkdaşlıq edir. Bu əməkdaşlıq müxtəlif səviyyələrdədir. Texniki, informasiya və digər xarakterli əməkdaşlıqlar Azərbaycanın maraqlarına xidmət edir.

Böyük Britaniya da NATO-nun aparıcı ölkələrindən biri olaraq dünyada və Avropada böyük hərbi imkanlara malikdir. O da məlumdur ki, Böyük Britaniya həm də Azərbaycanla çox yaxşı münasibətlərə malik ölkələrdən biridir.

84 milyard funt sterlinqdən artıq sərmayə ilə Böyük Britaniya Azərbaycanın ən böyük xarici investoru olaraq qalır. Azərbaycanın Böyük Britaniyaya yatırımları artıq 2 milyard dolları ötüb. Hazırda 500-dən çox Britaniya şirkəti Azərbaycanda fəaliyyət göstərir. Onların fəaliyyəti infrastrukturdan tutmuş səhiyyə və kənd təsərrüfatına qədər müxtəlif sahələri əhatə edir. Böyük Britaniya mürəkkəb və tələtümlü bir regionda Azərbaycanı mühüm təhlükəsizlik tərəfdaşı kimi dəyərləndirir. Mart ayında otuz ildən sonra Böyük Britaniyanın Azərbaycana ilk dəfə müdafiə attaşesi təyin etməsi Rusiyanın ciddi narahatlığına səbəb olub.

Azərbaycanla Böyük Britaniya arasında hərbi əməkdaşlığa dair yeni planın imzalanması mümkündürmü?

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov** “Yeni Müsavat”a bildirdi ki, artıq uzun müddətdir hər il “Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Birləşmiş Krallığın Müdafiə Nazirliyi arasında maliyyə ili üçün hərbi əməkdaşlıq Planı” imzalanır və həyata keçirilir. Nazir Zakir Həsənovun səfirlə görüşündə ola bilsin, növbəti maliyyə ili üçün hərbi əməkdaşlıq planının imzalanmasına hazırlıq məsələsi də müzakirə edilib: “Azərbaycan dünyada bir sıra ölkələrlə hərbi əməkdaşlıq edir. Bu əməkdaşlıq müxtəlif səviyyələrdədir. Texniki, informasiya və digər xarakterli əməkdaşlıqlar Azərbaycanın maraqlarına xidmət edir. Azərbaycanın hərbi sahədə əməkdaşlıq etdiyi ölkələr əsasən Rusiya, Türkiyə, İsrail, Pakistan, Belarus, Britaniya və digərləridir. Sözügedən ölkələrlə hərbi sahədə qurulan əməkdaşlıq təkcə silah ticarəti ilə bağlı deyil. Bu əməkdaşlıq həm də



təcrübə mübadiləsini özündə ehtiva edir. Düzdür, silah idxalı da ön sıradadır. Çünki hər bir müstəqil, suveren dövlət kimi Azərbaycanın da öz müdafiə qüdrətini möhkəmləndirmək hüququ var. Azərbaycan da bundan çıxış edərək vacib addımlar atmaqda və bu sahədə məqsədyönlü siyasət yeritməkdə davam edir. Ancaq bu sahədə əməkdaşlıq çoxşaxəlidir. İldə bir dəfə Azərbaycan və Böyük Britaniyanın müdafiə nazirlikləri arasında qərargah danışıqları keçirilir, tədbirdə iki ölkə arasında hərbi sahədə əməkdaşlığın vəziyyəti, perspektiv istiqamətləri nəzərdən keçirilir, təlim, təhsil, eləcə də regional təhlükəsizlik və digər maraq doğuran məsələlər müzakirə olunur, əməkdaşlıq planı imzalanır. Bu plana uyğun fəaliyyət qurulur. Böyük Britaniya NATO-nun aparıcı üzvlərindən biri olaraq dünyada və Avropada böyük hərbi imkanlara, ən müasir silahlara malikdir. Böyük Britaniyanın hərbi sahədə əldə etdiyi nailiyyətlər bu dövlətin nüfuzunu daha da artırır. O da məlumdur ki, Böyük Britaniya həm də Azərbaycanla çox yaxşı münasibətlərə malik ölkələrdən biridir. Bu baxımdan Azərbaycanla Böyük Britaniya arasında hərbi əməkdaşlığa dair planın imzalanması təbiidir”.

**Ekspert qeyd etdi ki, Azərbaycanla Böyük Britaniya arasında hərbi əməkdaşlıq formatının qurulması və aparılan danışıqlar Azərbaycanın hərbi qüdrətinin artmasında mühüm faktorlardandır:** “Böyük Britaniya kimi dünyanın güclü və NATO-ya üzv olan bir dövlətilə hərbi əlaqələrin gücləndirilməsi ordumuz üçün yeni imkanlar açır. Müdafiə Nazirliyi ilə bu ölkənin hərbi nazirliyi arasında əməkdaşlıq ilk növbədə ordumuzun NATO-ya inteqrasiya prosesində də mühüm rol oynayır. Böyük Britaniya ilə qurulan hərbi əməkdaşlıq əlaqələri Silahlı Qüvvələrin təlim və döyüş qabiliyyətinin yüksəlməsi üçün mütəmadi hərbi təlimlərin keçirilməsini də şərtləndirir. İngiltərə, görünür, hərbi əməkdaşlığı Azərbaycanla daha da inkişaf etdirmək niyyətindədir. Azərbaycanla Böyük Britaniya arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Azərbaycan Böyük Britaniyanın Cənubi Qafqazda yalnız əsas iqtisadi tərəfdaşı deyil, həm də, ümumiyyətlə, ən perspektivli tərəfdaşlardan biridir. Azərbaycanın Vətən müharibəsində tarixi qələbəsindən və işğal olunmuş ərazilər azad edildikdən sonra Britaniya ilə yeni xarakter və miqyas qazanan, artan və intensivləşən siyasi təmasları təhlükəsizlik və hərbi sahədə də dərinləşib”.

❑ **Etibar SEYİDAĞA,
“Yeni Müsavat”**

# Sumqayıt yenə erməniləri qorxutdu

## Bu şəhərdə Türkiyə ilə birgə PUA istehsalı xəbəri Ermənistan mediasında “bomba” kimi partladı

**Türkiyənin “Baykar Makina” şirkətinin yerli törəməsi “Bayraktar Teknoloji Azərbaycan” MMC pilotsuz uçuş aparatlarının (PUA) istehsalına başlayıb. Müəssisə istehsalı Sumqayıt Sənaye Parkında həyata keçirir. Məhsullar hələ ki daxili bazar üçün nəzərdə tutulub.**



“Bayraktar Teknoloji Azərbaycan”a Sumqayıt Sənaye Parkının rezidenti statusu bu ilin may ayında verilib. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti “Bayraktar Teknoloji Azərbaycan”ı 2022-ci ildə dövlət qeydiyyatına alıb. Şirkətin hüquqi ünvanı Bakı şəhəri, Nəsimi rayonu, Zərifə Əliyeva küçəsi, 115, nizamnamə kapitalı 1,7 milyon manat, qanuni təmsilçisi isə “Baykar Makina”nın sahə koordinatoru Hüseyn Topuzdur. “Baykar Makina” “Bayraktar” PUA-larının istehsalı ilə məşğuldur. Azərbaycan ordusunun 2020-ci ildəki Vətən Müharibəsində geniş tətbiq etdiyi bu PUA-ların yaradıcısı Selçuk Bayraktardır. O, həm də “Baykar Savunma” şirkətinin texniki direktorudur.

**Məsələ ilə bağlı “armenianreport” portalı yazır:** “Bayraktar Teknoloji Azərbaycan” MMC-nin (Türkiyəli sərmayədar və “Baykar Makina”nın törəmə şirkəti) Azərbaycanın Sumqayıt şəhərində fəaliyyətə başlaması xəbəri diqqəti cəlb edir. Bir müddət əvvəl Azərbaycan Qarabağda döyüşmək üçün Türkiyədən “Bayraktar” pilotsuz uçan aparatları alıb və indi öz torpağında istehsal yaradılıb. 2025-ci ildə Ermənistanın müdafiə büdcəsi 664,6 milyard dram və ya təxminən 1,7 milyard dollardır. 2026-cı ilin büdcə layihəsində təxminən 563,1 milyard dram, 2025-ci illə müqayisədə 101,5 milyard dram azalma (təxminən 15% azalma) nəzərdə tutulur. Baş nazir Nikol Paşinyan və maliyyə naziri vurğulayırlar ki, müdafiə xərcləri 2025-ci ildə “həddindən artıq artıb” və bu, qismən əvvəllər 2030-2035-ci illər üçün nəzərdə tutulmuş borc öhdəliklərinin ödənilməsi ilə bağlıdır. Bu arada Ermənistan müdafiə büdcəsini azaltmağı planlaşdırdığı halda, Azərbaycan tam əks tendensiya nümayiş etdirir”.(mənbə: “Bakı-xəbər”)

**Erməni mediası iddia edir ki, Azərbaycan müdafiə xərclərini fəal şəkildə artırır və müasir döyüş sistemlərinin istehsalına sərmayə qoyur:** “PUA istehsalına başlamaqla texnoloji və kəmiyyət potensialını dəyişir. İstehsalın hazırda ”daxili bazar üçün" olduğu bildirilsə də, yeni imkanlar itmir və həm dinc, həm də döyüş məqsədləri üçün istifadə oluna bilər. PUA-lar, kəşfiyyat, dəqiq zərbələr və əməliyyat imkanlarına malik döyüş vasitələri-bütün bunlar döyüş alətlərinin çeşidini genişləndirir. Artıq Azərbaycanın pilotsuz təyyarələrdən, pilotsuz uçuş aparatlarından və kəşfiyyat sistemlərindən istifadə təcrübəsi var ki, bu da ona nəinki özünü müdafiə etmək, həm də istədiyi yerdə və istədiyi vaxt hücum etmək imkanı verir".

**Erməni mediası yazır ki, Ermənistan müdafiə xərclərini artırmasa və ordusunu modernləşdirməsə, bu uçurum daha da genişlənəcək:** “Azərbaycan gərginliyi və təzyiqi saxlamaqdan faydalanır ki, Ermənistan müharibəsiz də güzəştə getməyə məcbur olsun. Bu, yeni yerli eskalasiyalar, təxribatlar, sərhəd pozuntuları, artilleriya atəşi və pilotsuz təyyarələrin zərbələri ehtimalının artmasına baxmayaraq baş verir. Bu, aşkar reallıqdır. Dinc bəyanatlar xarici siyasət aləti ola bilər, amma belə bəyanatlar beynəlxalq təzyiqləri azaltmaq, dəstək və investisiya qazanmaq, müdafiə strategiyası üçün o qədər də əlverişli deyil. Qəribədir ki, belə aşkar və danılmaz həqiqəti xalqın ən vacib şeyi - Ermənistanımızı etibar etdiyi şəxslər başa düşmür”.

Burada qeyd edək ki, Azərbaycanın Ermənistana hücum etmək planı yoxdur. Bu səbəbdən erməni tərəfinin narahatlığı da əbəsdir.

YENİ MÜSAVAT
N 181 (8791) 8 oktyabr 2025

# MDB-nin müsəlman ölkəsində cümə sammiti

## Ekspert: “İmzalanacaq sənədlər süqutunu yaşayan təşkilatı ayaqda saxlamaq cəhdidir”

**Müstəqil Dövlətlər Birliyinin (MDB) Dövlət Başçıları Şurasının oktyabrın 10-da Düşənbədə keçiriləcək iclasına hazırlıqlar başa satıb. Bu barədə MDB-nin baş katibi Sergey Lebedev “Xovar” xəbər agentliyinə müsahibəsində bildirib.**

O deyib ki, dövlət başçıları 2030-cu ilə qədər hərbi əməkdaşlıq konsepsiyası, terrorizmlə mübarizə və MDB-nin xarici sərhədlərinin mühafizəsi sahələrində bir sıra sənədlərin qəbul edilməsini planlaşdırır. “Birlik ölkələrinin dövlət başçılarının müzakirəsinə 19 məsələ təqdim olunur. İmzalanması planlaşdırılan sənədlər arasında təhlükəsizlik, cinayətkarlıq, terrorizm, ekstremizmlə mübarizə sahəsində əməkdaşlığa dair qərarlar mühüm yer tutur”, - deyə o bildirib. Lebedevin sözlərinə görə, sammitdə digər məsələlərlə yanaşı, 2026-2028-ci illər üçün terrorizm və ekstremizmə qarşı mübarizədə MDB-yə üzv dövlətlər arasında əməkdaşlıq proqramları, o cümlədən 2026-2030-cu illər üçün xarici sərhədlərdə sərhəd təhlükəsizliyinin gücləndirilməsi, 2030-cu ilə qədər hərbi əməkdaşlıq konsepsiyası, MDB dövlət başçılarının cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq üzrə birgə bəyanatı, regional enerji təhlükəsizliyinin təmin edilməsi və digər sənədlər qəbul olunacaq.

Qeyd edək ki, sentyabrın 24-də müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Belarus Respublikasının Minsk şəhərində keçirilən MDB dövlətləri Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin növbəti iclasında iştirak edib. Sentyabrın sonunda isə Azərbaycanın baş naziri Əli Əsədov MDB baş nazirlərinin iclasına qatılıb.

Qeyd edək ki, Azərbaycan son aylarda MDB çərçivəsində keçirilən tədbirlərə qatılmırdı. Rəsmi Bakı isə nümayəndə heyətinin MDB-nin iclaslarında iştirak etməməsini Rusiya ilə bağlı baş verən hadisələrlə əlaqələndirmirdi.

MDB-ni hərbi cəhətdən gücləndirmək niyyəti alınacaqmı və s. suallarla ekspertlərə müraciət etdik.

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi üzvü Aydın Mirzəzadə “Yeni Müsavat”a açıqlamasında bu istiqamətdə çox vacib məqamlara aydınlıq gətirdi:** “Azərbaycan MDB-nin üzvüdür və üzvlük məsələsindən irəli gələn mövzularda iştirak edir. Rusiya ilə münasibətlərimizin MDB ilə olan münasibətlərə aidiyyəti yoxdur. MDB daxilində Azərbaycan digər ölkələrlə əməkdaşlıq məsələlərinə xüsusi önəm verir. Bu, iqtisadi əməkdaşlıqdır, beynəlxalq məsələlərə birgə münasibətin müəyyənləşdirilməsidir, təşkilat daxilində ikitərəfli münasibətlərin genişləndirilməsidir və s. Qarşıdan gələn sammitdə qoyulan məsələlərin sırasında Azərbaycanın da marağında olan məsələlər var. Cinayətkarlığa və terrorizmə qarşı birgə mübarizə məsələsini misal çəkə bilərik. Burada birgə mübarizə və s. məsələlər mühüm rol oynayır. Elan edilən hərbi konsepsiya məsələsinə gəldikdə isə, Azərbaycan hesab edirəm ki, mümkündür ki, fərdi yanaşsın. O baxımdan ki, MDB hərbi təşkilat deyil. Eyni zamanda Azərbaycan MDB üzvlərindən bir qrupunun yaratdığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyil. Biz, ümumiyyətlə, heç bir blokun üzvü deyilik və Qoşulmama Hərəkatının ən fəal üzvlərindən biriyik. Bu hərəkatın da əsas prinsiplərindən biri heç bir hərbi bloka qoşulmamaqdır. Azərbaycan 4 ilə yaxın bu təşkilatın rəhbəri oldu. Hansı ki, çox az ölkə nizamnamə ilə nəzərdə tutulan üç ildən çox müddətdə Qoşulmama Hərəkatına rəhbərlik edib. Həmin məsələnin müzakirəsində ya Azərbaycan, ümumiyyətlə, bu məsələnin müzakirəsində iştirak etməyə bilər, ya da bu məsələyə öz fərdi münasibətini bildirə bilər. Azərbaycan üzv olduğu təşkilatların fəaliyyətində hər zaman özünün milli maraqlarını öndə tutub, dövlət müstəqilliyinin və suverenliyinin qorunmasına xüsusi önəm verib. Həmçinin milli maraqlarımıza xidmət edən ikitərəfli və çoxtərəfli əməkdaşlıq variantlarını da maraqlarımıza cavab verdiyi təqdirdə, nəzərdən keçirib”.



**Siyasi təhlilçi Sona Əliyeva hesab edir ki, Azərbaycan MDB liderlərinin Düşənbə toplantısında ən ali səviyyədə təmsil olunmayacaq:** “Bir müddət əvvəl Rusiya Xarici İşlər Nazirliyi də bu barədə məlumat yaymışdı. Ola bilər ki, Bakını Düşənbə toplantısında Xarici İşlər Nazirliyi və ya baş nazir səviyyəsində kimlərsə təmsil etsin. Amma indiki məqamda bu da inandırıcı görünmür. Azərbaycanın bu tədbirə qatılmamasına isə şübhəsiz ki, Bakı ilə Moskva arasındakı münasibətlər əsas səbəbdir. İki paytaxt arasındakı sərinlik MDB daxilindəki kollektiv münasibətlər sisteminə də təsirini göstərməkdədir. Bu soyuqluğun Rusiyanın təyyarə qəzasına görə Azərbaycandan üzr istəyəcəyi ana qədər davam edəcəyini düşünürəm. Çünki rəsmi Bakı haqlı və prinsipial mövqeyindən geri dönənə oxşamır. Rusiya isə Azərbaycana qarşı getdikcə daha sərt mövqedə dayanır. Kremlin Bakı, Kişinyov, Tiflis, Kiyev və başqalarına yuxarıdan aşağı baxışı MDB daxilində parçalanmanı daha da sürətləndirir. Azərbaycan MDB çərçivəsində Ermənistan istisna olmaqla, digər üzv ölkələrlə müxtəlif sahələrdə, xüsusən mədəniyyət, humanitar, elm və digər sahələrdə əməkdaşlıq həyata keçirir. Ölkəmiz MDB daxilində aparılan əməkdaşlıq çərçivəsində öz milli maraqlarını rəhbər tutur. Bu, hər zaman belə olub. Amma Rusiya Azərbaycanın MDB-dəki sərbəstliyini heç zaman həzm etməyib. Bizim üçün MDB-də təmsil olunmaqla-olunmamaq arasında hər hansı ciddi bir fərq yoxdur. Hazırda öz iqtisadi durumuna görə MDB-dən və Rusiyadan asılı iki ölkə var. Bunlardan biri Belarus, digəri Tacikistandır. Düşünürəm ki, yaxın illərdə Belarus və Tacikistan da Rusiyadan qopa bilər. Əgər şimal qonşumuzda hər hansı bir siyasi laxlama başlayarsa, taciklər və belaruslar da MDB-yə barmaqarası yanaşacaqlar”.

**Siyasi təhlilçinin fikrincə, MDB-nin hər hansı sənədlər toplusu ilə hərbi cəhətdən gücləndirilməsi məsələsi də inandırıcı deyil:** “İstənilən sanksiya burulğanında "MDB-nin hərbi qüdrəti" puç olacaq. Bu baxımdan, düşünürəm ki, imzalanacaq sənədlər, sadəcə olaraq, süqut illərini yaşayan MDB-ni ayaqda saxlamaq cəhdləridir. Əslində Rusiyanın beyin mərkəzləri də adıçəkilən təşkilatın süqutunu aydın şəkildə görməkdədir".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Azərbaycan TDT-nin hesabına əlavə 2 milyon dollar köçürdü

## Ceyhun Bayramov: "Təşkilat dinamik və nüfuzlu regional mərkəzə çevrilib"

**Oktyabrın 7-də Türk Dövlətləri Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclası keçirilib. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib ki, ortaq dil, tarix və ənənələrə söykənən, Naxçıvan Müqaviləsi ilə təməli qoyulan TDT dinamik və nüfuzlu bir regional mərkəzə çevrilib: “Beynəlxalq qurumlara inamın sarsıldığı bir dövrdə, Türk dövlətləri arasında qardaşlıq və qarşılıqlı etimad üzərində qurulan əməkdaşlıq əlaqələrinin dinamikası, hamımız üçün təkcə qürur mənbəyi deyil, gələcəyə ümidlə baxmağımız üçün möhkəm bir əsasdır.**

Prezident İlham Əliyevin təşəbbüsü ilə TDT-nin illik zirvə görüşlərinin sayının ikiyə çatdırılması əməkdaşlıq imkanlarımızın çevik, dərin və əhatəli müzakirəsi üçün əlverişli fürsət yaradır".

Ceyhun Bayramov vurğulayıb ki, regional sülh və sabitlik xalqların sosial-iqtisadi rifahı və tərəqqisinə xidmət etdiyi zaman sözün əsl mənasında tam regional inkişaf və inteqrasiyadan danışmaq mümkündür: "Əməkdaşlığımızın daha məzmunlu və dayanıqlı xarakter alması üçün iqtisadi potensialımızı daha da gücləndirməli, təşkilatımızın üzvləri arasında qarşılıqlı investisiyaları və ticarəti inkişaf etdirməliyik. TDT üzv dövlətləri coğrafi baxımdan təbii nəqliyyat-logistika-tranzit xəttini təşkil edərək Avropa və Asiya qitələri arasında körpü rolunu oynayır və bu istiqamət üzrə nəhəng imkanlara malikdir. Bu xətt eyni zamanda Orta Dəhlizin ayrılmaz parçasıdır.

Azərbaycan son onilliklər ərzində bu dəhlizin canlandırılması və işlək vəziyyətə gətirilməsi üçün ardıcıl səylər göstərir. Bu səylər indiyədək Bakı-Tiflis-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası kimi konkret layihələrlə nümayiş etdirilib.

Bu çərçivədə, 8 avqust 2025-ci il tarixində Vaşinqton Zirvə görüşü çərçivəsində Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb regionları və ölkəmizin Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişi təmin edəcək “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nun (TRIPP) bəyan edilməsi eyni zamanda regionumuzda bağlantıların şaxələndirilməsi baxımından mühüm addımdır.

TDT üzv dövlətləri arasında enerji təhlükəsizliyi üzrə əməkdaşlıq təqdirəlayiqdir və böyük perspektivlər vəd edir. Azərbaycan uzun illərdir ki, Bakı-Tiflis-Ceyhan və Cənub Qaz Dəhlizi kimi transregional layihələr vasitəsilə Avropada və daha geniş coğrafiyada enerji təhlükəsizliyinə töhfə verir.

Hesab edirik ki, ənənəvi enerji sahəsindəki uğurlu tərəfdaşlığımızı yeni əməkdaşlıq elementləri ilə zənginləşdirməyin zamanıdır. Bu baxımdan, yüksək texnologiyalar və yaşıl transformasiya dövründə “Rəqəmsal İpək Yolu” və “Yaşıl Enerji Dəhlizi” kimi layihələrin ölkələrimizə uzunmüddətli siyasi və iqtisadi dividentlər gətirməklə yanaşı, TDT çərçivəsində tərəfdaşlığımızı daha da möhkəmləndirəcəyi şübhəsizdir.

Eyni zamanda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa və quruculuq işlərində dost və qardaş TDT üzv dövlətlərinin iştirakını məmnuniyyətlə qeyd edərək, bunun təşkilatımız çərçivəsində əməkdaşlığımıza əlavə dəyər qatdığını və tərəfdaşlığımız üçün yeni imkanlar yaratdığını da vurğulamaq istərdim".

Nazir onu da bildirib ki, təşkilatın işinə töhfə vermək və eləcə də katibliyin büdcəsinin artırılması məsələsində əlavə stimul yaratmaq məqsədilə Azərbaycan tərəfindən TDT Katibliyinin hesabına 2 milyon ABŞ dolları məbləğində əlavə vəsait köçürülüb.

❑ **“Yeni Müsavat”**



YENİ MÜSAVAT
N 181 (8791) 8 oktyabr 2025

# Cənubi Qafqazda post-Putin dövrünə hazırlıq

## ABŞ Senatında region üzrə dinləmələr keçirilib; Vaşinqton Moskvanın bölgədə təsirlərinin azalmasından istifadə edir - Rusiya hədə dilindən imtina etsə...

**ABŞ Senatında Qara dəniz və Cənubi Qafqaz regionu üzrə dinləmələr keçirilib. "Yeni Müsavat"ın məlumatına görə, Senatın Beynəlxalq münasibətlər komitəsinin Avropa ilə əməkdaşlıq və regional təhlükəsizlik üzrə altkomitəsi "ABŞ-nin Qara dənizdə gələcək strategiyası" mövzusunda iclas keçirib. Dinləmələrdə senatorlar Kris Merfi, Stiv Deins, eləcə də tanınmış analitik mərkəzlərin nümayəndələri iştirak ediblər.**

İclasda əsas məruzəçi Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz İnstitutunun qurucusu Frederik Starr olub. O bildirib ki, Qara dəniz təkcə coğrafi məkan deyil, Avropanı, Qafqazı və Mərkəzi Asiyanı qlobal iqtisadiyyatla birləşdirən strateji arteriyadır.

Frederik Starr çıxışında Cənubi Qafqazın strateji roluna da xüsusi diqqət ayırıb. O bildirib ki, Gürcüstan, Azərbaycan və Ermənistanın hərəkət azadlığı onların Qara dənizə çıxış imkanından asılıdır. Bu çıxış olmadan region ölkələri ya Rusiyanın, ya da Çinin təsir dairəsində qalır. Ekspert vurğulayıb ki, bu gün Azərbaycan və Ermənistan Qərblə əməkdaşlığa daha açıq mövqe nümayiş etdirir, Gürcüstan isə yaxın gələcəkdə ABŞ ilə strateji dialoqa qayıda bilər.

Starr həmçinin ABŞ-nin Qara dəniz siyasətinin yenidən nəzərdən keçirilməsini və NATO-nun akvatoriyada rotasiya prinsipi ilə daimi dəniz qüvvəsi saxlamasını təklif edib. Onun fikrincə, bu qüvvə Ukrayna, Moldova və Cənubi Qafqaz ölkələrinin təhlükəsizliyinə mühüm töhfə verəcək. "Rusiya artıq daxili transformasiya mərhələsinə daxil olub və post-Putin dövrünə doğru hərəkət edir. ABŞ bu yeni reallığı nəzərə alaraq region strategiyasını yenidən formalaşdırmalıdır," - deyə amerikalı ekspert qeyd edib. Müzakirələrin yekununda ABŞ analitikləri bildiriblər ki, Qara dəniz və Cənubi Qafqaz regionu gələcəkdə Avropanın enerji və təhlükəsizlik arxitekturasının ayrılmaz hissəsinə çevrilməlidir. Bunun üçün Vaşinqtondan daha sistemli, koordinasiyalı və uzunmüddətli strategiya gözlənilir.

ABŞ-nin Cənubi Qafqaz siyasətinin fəallaşmasının səbəbləri nə ilə bağlıdır? Vaşinqton Moskvanın regionda təsirlərinin azalmasından istifadə edirmi?

"Putindən sonrakı Rusiya ambisiyalarını saxlamalı olacaq. Çünki müharibənin vurduğu zərər, xüsusən sanksiyalar, həmçinin strateji itkiləri onun bir müddət özünü bərpa etməsinə gətirib çıxaracaq. ABŞ və kollektiv Qərb isə həmin boşluqda onun "arxa bağçası" hesab etdiyi postsovet məkanında təsirlərini gücləndirməyə davam edəcək".




Bu sözləri "Yeni Müsavat"a **Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini, professor Elxan Mirzəyev** söyləyib. Onun qənaətinə görə, bununla belə, eyforiyaya qapılıb Rusiyanın tamamilə bölgəni tərk edəcəyinə arxayınlaşmağa dəyməz.

**Professor region uğrunda rəqabətin davam edəcəyini gözləyir və zəifləmiş Rusiyaya ABŞ ilə mübarizədə Çinin dəstək olacağını proqnozlaşdırır:** "Putindən sonrakı dönəmdə yüksəlişdə olan Çin Cənubi Qafqaz və Orta Asiyada ABŞ-nin önünə çıxacaq, yaxud Rusiyanı bu prosesdə himayə edəcək. İlk növbədə Çin özü bizim bölgədə maraqlıdır. İkincisi, Rusiya üçün Cənubi Qafqaz onun üreyidir və regionu ABŞ-yə təslim etməz. Sadəcə, təsir imkanları və nüfuz dairəsi kifayət qədər azalacaq. Ona görə də Çin müttəfiqini daha güclü şəkildə dəstəkləmək məcburiyyətində qalacaq. Nəzərə alaq ki, Rusiyanın gələcək hakimiyyəti "dişləri qırılmış" və müharibədən yorğun çıxmış bir ölkənin məsuliyyətini çiyinlərinə götürəcək. Belə vəziyyətdə isə supergüc kimi dünya siyasətində iştirak etmək mümkün olmayacaq".

**E.Mirzəyev post-Putin dövrünü Yeltsin iqtidarının zamanları kimi görməsə də, Rusiyanın imperiya planlarının uzunmüddətli təxirə salınacağını ehtimal edir:** "Ancaq biz tələsik nəticələr çıxarmalı deyilik ki, Rusiya Cənubi Qafqazda yoxdur. Hazırda ən ciddi şəkildə Gürcüstanda mövcuddur, Ermənistanda siyasi-iqtisadi və hərbi təsirləri qalmaqdadır. Azərbaycana gəldikdə, bu təsirlər xeyli azaldılıb. Birləşmiş Ştatlar və Avropa Birliyi isə uzunvədəli proqram əsasında regionda varlığını gücləndirir. Bu, bir ilin işi deyil və hər üç Qafqaz ölkəsi ilə əlaqələri daha da inkişaf etdirməyə çalışacaqlar. Bu prosesin Trampdan sonra da davam edəcəyini gözləyirəm".

**Siyasi şərhçi Ramiyə Məmmədova isə ABŞ-nin bölgədə aktivləşməsini üç səbəblə izah edir:** "Əvvəla, "Tramp marşrutu" adlanan dəhliz Birləşmiş Ştatların nəzarəti altında açılır. Bu, Rusiya üzərində Cənubi Qafqazda ən ciddi strateji qələbədir. Ümumiyyətlə, Orta dəhlizin bir hissəsi olan Zəngəzur dəhlizinə nəzarət amerikalıların çoxdankı arzusu idi. Hətta Bayden prezident olduğu dövrdə köməkçisi Obrayen işarə etmişdi ki, dəhliz Rusiya və Çindən yan keçməlidir. Düzdür, Pekinsiz bu layihənin reallaşması nonsensdir, amma ABŞ nəzarəti ələ keçirməyi bacardı".

**Ekspertin fikrincə, Vaşinqtonun regionda fəallığının digər səbəbi də elə Çinlə rəqabətidir:** "Yəni burada təkcə logistikalar məsələsi yoxdur, bölgədə təsir gücünü artırmaq uğrunda savaş gedir. Ona görə post-Putin dövrü dediyiniz mərhələdə ABŞ postsovet məkanı uğrunda Rusiya yox, onun "böyük qardaşı" Çinlə yarışacaq. Azərbaycan üçün heç bir dilemma yoxdur. Baxmayaraq ki, Çinlə strateji tərəfdaşlıq memorandumu imzalanıb, biz hər hansı cəbhədə dayanıb strateji seçim etməmişik".

**Təhlilçi ən nəhayət, ABŞ-nin regiondakı maraqları kontekstində üçüncü faktor kimi siyasi təsirləri görür:** "Azərbaycan və Ermənistandan fərqli olaraq, Gürcüstanda hakimiyyət Rusiya ilə münasibətlərdə fərqli davranır. Bunu 2008-ci il müharibəsi ilə əlaqələndirmək və başa düşmək olar. Ancaq Vaşinqton Tiflisdə getdikcə zəifləyən mövqeyini də bərpa etməyə başlayacaq. Rusiya yalnız əməkdaşlıq doktrinası ilə Cənubi Qafqazda qala bilər. Bunu Putin iqtidarı da, sonrakılar da qəbul etsələr, Moskva bölgəni tərk etməyəcək. Çünki ölkələr arasında iqtisadi sahədə əlaqələri genişləndirmək üçün böyük potensial var. Bu gün Şimal-Cənub dəhlizi həyati əhəmiyyət kəsb edir. Xüsusən də Azərbaycan Rusiyaya lazımdır. Ən əsası isə qonşu ölkələrik. Rusiya qaba və təhdid leksikonundan imtina etsə, Cənubi Qafqazı itirməyəcək".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Kreml ABŞ-nin təklifini rədd etdi

## Moskva ilə Vaşinqton arasında danışıqlar dalana dirəndi

**Rusiya Prezidenti Vladimir Putin ABŞ-nin səxavətli təkliflərinə baxmayaraq, Ukraynanı bombalamağa davam etməklə, görünür, Donald Tramp administrasiyasının əsas müşavirlərini üstələyib. "Financial Times" (FT) məsələ ilə tanış olan rəsmiyə istinadən yazıb ki, ABŞ Prezidentinin yaxın çevrəsində Ukraynadakı vəziyyətlə bağlı "tektonik sürüşmə" baş verib.**

"Financial Times" mənbələrinin bildirdiyinə görə, administrasiyanın mövqeyinin qəfil dəyişməsi ABŞ-nin Ukraynanın Rusiyanın enerji infrastrukturuna zərbələri üçün kəşfiyyat yardımı göstərmək qərarı ilə izah edilir. Təkcə sentyabr ayında ölkədəki beş böyük neft emalı zavodunu bağlayan və Uzaq Şərqdən ölkənin mərkəzinə qədər regionları benzin qıtlığı bürüyüb.

Altı aydan çox davam edən və Putinlə Trampın Alyaskada şəxsi görüşü ilə yekunlaşan danışıqlar nəticəsiz qalıb. Rəsmilərin Qərb şirkətlərinin Rusiyaya qayıtması ilə bağlı ümidləri puça çıxdı, hətta Moskva ilə Vaşinqton arasında ikitərəfli danışıqlar dalana dirəndi: nə diplomatik missiyalar, nə də hava səfərləri bərpa olundu.

Tramp administrasiyası rəsmilərinin ictimai ritorikası getdikcə aqressivləşir. Sentyabrın 15-də ABŞ Prezidentinin xüsusi nümayəndəsi Keyt Kelloq ABŞ ordusunun Rusiya ordusunu "təpikləyəcəyini" bəyan etmiş, bir həftə sonra isə Trampın özü Rusiyanı ciddi iqtisadi problemləri olan "kağız pələng" adlandırmışdı.

"Rusiya üç il yarımdır ki, həqiqi hərbi gücün bir həftədən az müddətdə qalib gəlməli olduğu müharibədə məqsədsiz mübarizə aparır", - Tramp yazıb. O həmçinin Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedyevi bir ay əvvəl təsadüfən ABŞ-ni nüvə silahı ilə hədələdiyinə görə "axmaq" adlandırıb.

Putin səylə bunların heç birinin baş vermədiyini deyir. "Putinin reallığı inkar etməsi həqiqətən də şiddətli xarakter alıb", - politoloq Abbas Qalyamov qeyd edib. Oktyabrın 2-də "Valday" klubunda çıxışında Putin ABŞ administrasiyasını "rasional yanaşmasına", ikiüzlülüyün olmamasına və öz maraqlarını müdafiə etməyə sadiqliyinə görə tərifləyib. O, "münaqişəni daim gərginləşdirən" müharibənin davam etməsində Avropanı günahlandırıb.

Obyektiv olaraq Putinin vəziyyəti daha da pisləşib. Qalyamov qeyd edib: "Heç bir qələbə görünmür, iqtisadiyyat böhrana doğru sürüşür, cəmiyyət yorulub, Ukrayna Silahlı Qüvvələri Rusiyanın neft emalı sahəsini darmadağın edir, hətta Tramp öz ritorikasını sərtləşdirib".

"Putin bu vəziyyətdə ən vacib vəzifəsini gözünü qırpmamaqda görür. Hamı görməlidir ki, o, əvvəllər yalan danışıb və yalan danışmağa davam edir", - ekspert vurğulayıb.



# Kabab iyi festivalı

Zamin HACI
zaminhaci@gmail.com

"Sağlığında kor Fatı, öləndə alagözlü Fatmam laylay"
(Azərbaycan ata sözü)

**Bir soydaş bloger var, təzəlikcə hansısa küçədə yaşayan qız uşağını aparıb gözəllik salonuna, saçını-başını yuduzdurub fotosunu paylaşmışdı. Bəlkə video da vardı, belə bambılı temalarla maraqlanmadığım üçün izləmədim. Xəbərin diqqətimi çəkməyinin səbəbi isə o idi ki, guya salondan çıxarkən qızın dəyişilib, gözəlləşdiyini yazmışdılar, amma təbii və çirkli halında o qız daha gözəl idi. Subyektiv fikrimdir, kimin kefi istəyirsə razılaşmasın. Mən, ümumiyyətlə, pis çıxmasın, bir əyri, amma təbii burunu yetmiş kosmetik buruna dəyişmərəm. Əlbəttə, bu əyrilik gözə girmirsə və insana fizioloji əzab vermirsə.**

Əlqərəz, bloger müəllim videonu yayıb, lakin sən demə, bu mövzu sosial şəbəkədə müzakirə edilibmiş və qızın guya 13 yaşı olması başlığının yalan olduğu açıqlanıbdır. Hətta kimlərsə qəfil ulduzu parlayan "bloq ilahəmizin" oğru olması haqda video paylaşıbmış. Di get... Necə deyərlər, hər gözəlin bir eybi vardır...

Elə bloger yoldaş da xalqa saxta cəfəngiyyat sırıdığı üçün utanmaq, xəcalət çəkmək yerinə nə edib? Buyurun, sitat: "Həmin qızın bu gün oğurluq etdiyi yerdə videosunu paylaşmısınız. Mən də bilirdim (!!! - Z.H.) bunu, amma bununla məşğul olan qurumlar var. Bu qız indi nə qədər depressiya yaşayacaq həmin görüntülərə görə... Uzun illərdir oğurluq edən (!!! - Z.H.) bir qızı gözəlləşmiş bir xanım kimi qələmə vermişdim. Nə etsə də, o görüntüləri paylaşmalı deyildiniz. İmkan verərdiz, yaddaşlarda dodaqlarına boya çəkən xanım kimi qalardı".

Heyrətamizdirmi? Yox. Biz artıq həyasızlığa, abırsızlığa, qabaqdangəlmişliyə öyrəncəli olmuşuq. Nə qələt edirsən et, onsuz cəmiyyət səni bağışlayacaq. Axı aşağı-yuxarı hamı eyni gündədir. "Kim oğurluq etməyibsə, videoya ilk dislaykı o atsın" - peyğəmbərdən sitata nəzirə etsək. Lotular, dələduzlar, oğrular cəmiyyətin ən seçilmiş təbəqəsi sayılırsa, düzgün insanlar deyil, əxlaqsızlar qabağa çəkilirsə, 17 yaşlı qızın və onun "reklam agentinin" üstünə getmək sarsaqlıq deyilmi? Səmimi yazıram: sarsaqlıqdır.

Bu məqamda şairdən sitatın yeri gəlmişdir, ənənəmizi pozmayaq: "Olmasaydı cahanda sarsaqlar, Ac qalardı yəqin ki, yaltaqlar". Yeri gəlmişkən, biz bunu rus şairi Krılovun təmsilinin tərcüməsi şəklində tanıyırıq. Mirzə Ələkbər Sabir özü də yəqin belə təqdim edib, ancaq mənim fikrimə görə xeyli təvazökarlıq edib, çünki "Qarğa və tülkü" şeirinin ana dilimizdəki variantı Krılovun tam sərbəst tərcüməsidir, yenidən, ana dilimizdə yazılmış şeirdir. Çünki bu təmsilin süjeti də Krılova məxsus deyil, ilk dəfə Ezop-da, daha sonra qədim Roma şairi Fedr-də, 17-ci əsr fransız şairi La Fonten-də və onlarla başqa şairlərdə rast gəlinir. Bu baxımdan, biz həmin şeiri Sabirin öz əsəri kimi qəbul etməyə borcluyuq. (Maraqlıdır ki, ilkin variantda, bizim eradan öncə 600-cü illərdə yaşamış yunan şairi Ezop-un təmsilində qarğa ağzında pendir yox, ət tutub. Ən məntiqlisi də əslində budur. İlk dəfə 1-ci əsrdə Fedr əti pendirlə əvəz edib. Görünür, Roma imperiyasında da bizdəki kimi ət bahalaşıbmış, qarğalar tapa bilmirmiş).

Söhbət çox uzandı, amma ət yoxa çıxsa da kabab festivalı keçirdə bilirik, əlhəmdüllah. Parazitlər toplaşıb Bakıda parazitologiya elmi üzrə konfrans keçirdə bilirlər. MDB faktiki gorbagor olub, yarışları isə qalır. Əsas budur. Bir şey yoxdursa da təsəvvür edək.

İmkan verin yaddaşlarda dodağımız boyalı qalsın. Nə qədər gözəl deyib... "Nə gözəlsən, nə xoşliqasən sən, Yeri var söyləsəm - hümasən sən".

# Paşinyan müharibə dövrünə niyə "məxfi" qrifi vurdu?

## Xüsusi hesabatda böyük sirlər yer alıb



**Ermənistan parlament sədrinin mətbuat katibi Movses Arutyunyan bildirib ki, 44 günlük müharibənin səbəb və nəticələrini araşdıran komissiyanın hesabatı məxfiləşdirilib. O bildirib ki, indi yalnız məxfi məlumatlara çıxış icazəsi olan parlament üzvləri tanış ola biləcəklər.**

Komissiya 2022-ci ilin fevralında hakim "Mülki Müqavilə" fraksiyasının təşəbbüsü ilə yaradılıb. İşi çərçivəsində 2020-ci il müharibəsindən əvvəl və müharibə zamanı ölkənin müdafiə və xarici siyasətinə cavabdeh olan şəxsləri toplantılarına dəvət edib. Xüsusilə də baş nazir Nikol Paşinyan və keçmiş müdafiə naziri David Tonoyan dinlənilib. 2024-cü ilin noyabrında komissiyanın rəhbəri Andranik Köçəryan hesabatın tam şəkildə parlamentə təqdim ediləcəyini qeyd edib.

Parlamentin dövlət və hüquq məsələləri komitəsinin rəhbəri Vladimir Vardanyan dolayısı ilə parlamentin spikeri Alen Simonyanın bu məsələ ilə bağlı mövqeyini dəstəkləyib. "44 günlük müharibəni araşdıran komissiyanın təqdim etdiyi sənəd hazırdır. Ona məxfi məlumatlarla tanış olmaq icazəsi olan deputatlar baxa bilər", Vardanyan əlavə edib.

O, komitənin çox böyük iş gördüyünü və təhlükəsizlik icazəsi olan bütün parlament üzvlərinin istintaqın nəticələri ilə tanış ola biləcəyini vurğulayıb.

"Joqovurd" qəzeti isə yazır ki, 44 günlük müharibənin şəraitini araşdıran komissiyanın rəhbəri 210 səhifəlik hesabatı komissiya üzvlərinə təqdim etməməklə parlamentin reqlamentini pozub. Reqlamentə görə, sənədlər deputatlar fikirlər söyləməsi üçün paylanmalı idi, lakin bu baş verməyib.

Daha əvvəl parlamentin spikeri Alen Simonyan vurğulamışdı ki, onun təqdim edilməsi üçün bütün müddətlər başa çatıb və reqlamentə görə, hesabat gündəliyə salına bilməz. Üstəlik, sənəd heç vaxt rəsmi olaraq parlamentin sədrinə təqdim olunmayıb.

Xüsusilə də baş nazir Nikol Paşinyan və keçmiş müdafiə naziri David Tonoyan (məhkəmə təcridxanasından azad edilib - red.) şərhləri dinlənilib. 2024-cü ilin noyabrında komissiyanın rəhbəri Andranik Köçəryan hesabatın tam şəkildə parlamentə təqdim ediləcəyini qeyd edib. 44 günlük müharibə hesabatına niyə "məxfi" qrifi vuruldu? Paşinyanın müharibə dövrü sənədini gizlətməkdə məqsədi nə ola bilər?

**Milli Məclisin deputatı Arzuxan Əlizadə** "Yeni Müsavat"a bildirdi ki, 44 günlük müharibədə Azərbaycanın əldə etdiyi qələbə ilə əslində Ermənistanın ordusunun məğlubedilməzliyi yalançı mifi darmadağın oldu: "Ermənistanın özünün verdiyi rəsmi statistik məlumatlar bundan ibarətdir ki, İkinci Qarabağ müharibəsində erməni ordusu təxminən 12 min fərarisi olan ordu kimi yadda qalıb. Eyni zamanda erməni ordusu təxminən bu sayda da canlı itkilərə məruz qaldı. Erməni cəmiyyəti anladı ki, Azərbaycanla qarşı-qarşıya dayana bilməz. Ona görə də "böyük Ermənistan" xülyası da darmadağın oldu. Həm də müharibə sübut elədi ki, "sarsılmaz erməni ordusu" saxtakarlığı üzərində mifdən başqa bir şey deyilmiş. 44 günlük müharibənin səbəb və nəticələrini araşdıran komissiyanın hesabatında da şübhəsiz ki, Ermənistan hərbi və siyasi rəhbərliyini ifşa edən, erməni ordusunun çürük olduğunu isbatlayan məqamlar yer alıb. İstisna deyil ki, Nikol Paşinyan parlament seçkiləri öncəsi bu məlumatların, həmin məqamların geniş ictimaiyyət üçün açıqlanmasının fəsadlarının ola biləcəyini düşünərək hesabatı məxfi qrifli sənəd siyahısına saldırıb. Görünən bundan ibarətdir ki, müharibənin gedişinə rəhbərlik edənlər içərisində peşəkar olmayanlar yer alıb. Nikol Paşinyanın özü sonradan xüsusi olaraq vurğulayırdı ki, bir sıra hərbi komandirlər, generalitet ölkə rəhbərliyinin əmrlərini doğru-düzgün yerinə yetirmirdilər, kənardan daha çox idarə olunurdular. Dəqiq olan odur ki, müharibə ilə bağlı, həmin dövrdə baş verən elə proseslər olub ki, baş nazir Nikol Paşinyan indiki vəziyyətdə onların üzə çıxarılmasını, ictimaiyyətə açıqlanmasını istəmir. Hesab edir ki, bu hesabat xüsusilə seçki ərəfəsində onun özünə qarşı istifadə oluna bilər. Buna görə də yəqin ki, geniş ictimaiyyət illər sonra həmin hesabatla bağlı məlumatlandırılacaq. İstənilən halda hətta "məxfi" qriflə saxlamağın özü də Nikol Paşinyana qarşı rəqiblərinin təbliğat vasitəsinə çevriləcək. Antitəbliğat bunun üzərində qurulacaq ki, baş nazir müharibə ilə bağlı nələrisə gizlədir".

**Politoloq Oqtay Qasımov** isə bildirdi ki, Ermənistan parlamentində 44 günlük müharibənin səbəb və nəticələrini **araşdıran komissiyanın hesabatının məxfi qriflə saxlanılması başadüşüləndir:** "Belə ki, bu hesabatda bir çox hərbi məsələlər, dövlət əhəmiyyətli sirlərin yer aldığı şübhəsizdir. Ola bilsin ki, məhz buna görə də hesabat məxfiləşdirilib. Əslində Nikol Paşinyan bundan həm də siyasi məqsədləri üçün istifadə etməyə çalışır. Yəqin ki, o hesabatda bəzi məqamlar var ki, həm Ermənistan hərbi rəhbərliyinin, eyni zamanda siyasi rəhbərliyinin hansısa hərəkətləri ilə bağlı müxalifətin istifadə edə biləcəyi nüanslar ola bilər. Baş nazir istəmir ki, həmin nüanslardan seçkilər dönəmində onun əleyhinə istifadə olunsun. İkincisi, qeyd etdiyim kimi, doğrudan da həmin hesabatda bir çox məxfi dövlət sirləri ola bilər. Bu səbəbdən də təbii olaraq həmin sənəd məxfiləşdirilə bilər. Ancaq o da məlumdur ki, bu, tam məxfiləşdirilmiş sənəd deyil. Sadəcə olaraq, bu, açıq sənəd deyil, dövlət əhəmiyyətli sənəd kateqoriyasına aid edilərək məxfi saxlanılır".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Köçəryandan baş nazirə ağır sözlər

**"ABŞ-nin Cənubi Qafqaz regionunda heç bir iqtisadi marağı yoxdur". "Armenian news" xəbər verir ki, bunu oktyabrın 7-də keçirdiyi mətbuat konfransında Ermənistanın ikinci prezidenti Robert Köçəryan deyib.**



"ABŞ-nin nə marağı var ki? İqtisadi marağı heç yoxdur. Ticari rəqəmlərə baxın. Üstəlik, ABŞ Çini cilovlamaq siyasəti yürüdür. Əliyev Çində bəyan edir ki, dəhliz (Trampın marşrutu) Çini Avropa ilə birləşdirmək üçün həlledici əhəmiyyətə malikdir. Hazırda Orta dəhliz inkişaf etdirilir. ABŞ-nin bəzi malları bu yolla gedəcək. Çin məhsullarının ixracına xidmət edəcək dəhlizin tikintisi ABŞ-nin Çinlə bağlı siyasəti ilə uzlaşmır. Bu cür suallar məqsədlərlə bağlı müəyyən nəticələrə gətirib çıxarır", - deyə Köçəryan qeyd edib.

Onun sözlərinə görə, Paşinyan əlindən gələni verir, Ermənistanın hesabına faktiki olaraq "Tereza Ana"ya dönüb: "Yaxşı ki, qız doğulmayıb, yoxsa milli biabırçılıq rəmzi olardı".

Köçəryan mətbuat konfransında deyib ki, Ermənistanın yerləşdiyi yerə görə Türkiyə və Azərbaycan istisna olmaqla, qonşu ölkələr üçün demək olar ki, heç bir tranzit potensialı yoxdur.

Onun sözlərinə görə, hər bir ölkənin tranzit potensialı üç hissədən ibarətdir: birincisi ölkənin geosiyasi mövqeyi, ikincisi relyef, üçüncüsü yol şəbəkələrinin vəziyyəti - keyfiyyət, inkişaf və sair: "İndi xəritəyə baxaq və "Sülh yollarının kəsişməsi"nin nə demək olduğunu və Ermənistanın hansı tranzit potensialına malik olduğunu başa düşək. Türkiyə və Gürcüstanın Ermənistandan yan keçərək bir-biri ilə əlaqə saxlamaq üçün hər cür imkanları var. Türkiyə və Rusiya arasında da belədir, Yuxarı Larsda türk avtomobilləri erməni avtomobillərindən qat-qat çoxdur. Gürcüstan-Azərbaycan timsalında da tam imkan var, nəqliyyat əlaqəsi mövcuddur, fəal işləyən əsas dəhliz Xəzərlə Qara dənizlər arasındadır.

İran və Azərbaycanın da ünsiyyət qurmaq üçün hər cür imkanları var, İran və Azərbaycandan heç kim Ermənistan ərazisinə daxil olaraq ticarət etmir. Eyni vəziyyət Türkiyə və Gürcüstanda da belədir. Bunun mənası yoxdur. Heç bir yük maşını sürücüsü Ermənistan vasitəsilə Gürcüstana getməyə cəhd etməyəcək. İran-Türkiyə məsələsində də vəziyyət eynidir.

Əslində Ermənistan coğrafi mövqeyinə görə bu ölkələr üçün demək olar ki, heç bir tranzit potensialına malik deyil, ancaq bir istisna var: Azərbaycan-Türkiyə".

YENİ MÜSAVAT
N 181 (8791) 8 oktyabr 2025







# Türk liderlərin Qəbələdən dünyaya mesajları

## Azərbaycan Prezidenti TDT-nin Zirvə Görüşündə hərbi təlimlər keçirməyi, Ərdoğan isə müdafiə nazirlərinin toplaşmasını təklif etdi

**Oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə görüşü keçirilib. Sammitdən əvvəl Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev X hesabında paylaşım edib. Paylaşımda qeyd olunub ki, toplantı “Sülh və təhlükəsizlik” mövzusuna həsr olunub: “Təhlükəsizlik bütün ölkələr üçün əsas prioritet olaraq qalır. Türk dünyası ortaq ailədir və qlobal güc mərkəzi kimi formalaşmaqdadır”.**

Liderlərin bir araya gəlməsindən öncə isə Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının toplantısı çərçivəsində bir sıra vacib sənədlər təsdiq edilib. “Yeni Müsavat” xəbər verir ki, iclasda qəbul olunan sənədlər TDT-nin institusional əsaslarının möhkəmləndirilməsinə, üzv və müşahidəçi dövlətlər arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edir.






Zirvə toplantısı başlanana qədər **Azərbaycan Prezidenti İlham Əliyev** Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovla görüşüb, əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar. Sonra Prezident TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarını qarşılayıb, birgə foto çəkdiriblər.

“Azərbaycanın qədim şəhəri olan Qəbələyə xoş gəlmisiniz”. Bunu Prezident zirvə toplantısında deyib. Dövlət başçısı TDT-yə uğurla sədrlik etmiş Qırğız Respublikasına təşəkkür edib: “Bu gün TDT ciddi geosiyasi mərkəz kimi formalaşır. Ortaq tarix və etnik köklərimiz bizi bir ailə kimi birləşdirir”.

**Prezident vurğulayıb ki, ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq vacibdir:** “Sevindirici haldır ki, TDT-nin rəsmi zirvə görüşləri ilə yanaşı qeyri-rəsmi zirvə görüşlərinin keçirilməsi artıq ənənəyə çevrilib”. O bildirib ki, bu gün sülh və təhlükəsizlik hər bir ölkənin inkişafı üçün vacib amildir: “Dünyanın üzləşdiyi geosiyasi təhdidlər fonunda qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü iclasın mövzusuna uyğun olaraq Türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir. Təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil”.

**Prezident qeyd edib ki, Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazı sülh məkanına çevirəcək**: “Biz Ermənistanın işğalını heç vaxt unutmayacağıq, şəhidlərimizin xatirəsini əziz saxlayacağıq, onların qanını biz döyüş meydanında aldıq”.

**Prezident deyib ki, 2022-ci ildən bəri Orta dəhlizlə yük daşımalar artıb:** “Bu çərçivədə Vaşinqton Zirvəsinin digər mühüm nəticələrindən biri də Zəngəzur dəhlizinin açılmasıdır. Sülh, regional bağlantılar və iqtisadi inkişafla bağlı olan digər mühüm istiqamət enerji təhlükəsizliyidir. Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyinin təminində özünü əvəzolunmaz və etibarlı tərəfdaş kimi təsdiqləyib. Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik".

**İ.Əliyev qeyd edib ki, Azərbaycan TDT-yə üzv ölkələrə bir çox önəmli sərmayələri icra edir. O bildirib ki, bu günə qədər qardaş ölkələrin iqtisadiyyatına 20 milyard dollara yaxın sərmayə qoyulub:** “Bunun çox hissəsi Türkiyə iqtisadiyyatına qoyulan sərmayələrdir. Ümumilikdə, atılan addımlar Türk dünyasında dost və qardaş ölkələr arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına xidmət edir”.

Dövlət başçısı gələn il I Türkoloji Qurultayın 100 illiyinin TDT çərçivəsində təntənəli keçirilməsini təklif edib. Eyni zamanda TDT-yə üzv ölkələrin birgə hərbi təlimlərinin keçirilməsini təklif edib. “Ölkələrimiz arasında hərbi, müdafiə və təhlükəsizlik sahələrində geniş əməkdaşlığı nəzərə alaraq, 2026-cı ildə Azərbaycanda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin birgə hərbi təliminin keçirilməsini təklif edirik”, - deyə Prezident Əliyev təşəbbüs irəli sürüb.

Həmçinin Qarabağ və Şərqi Zəngəzurun bərpasına dəstək olan qardaş ölkələrə təşəkkür edib. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq: “Nəqliyyat və kommunikasiya əlaqələri Türk Dövlətləri Təşkilatı çərçivəsində strateji əhəmiyyətə malikdir”.

**Türk dünyasının nəqliyyat, kommunikasiya, tranzit və digər istiqamətlərdə potensialından istifadə məqsədilə görülən işlərin qlobal əhəmiyyətli layihələrin icrasına gətirib çıxardığını vurğulayan dövlət başçısı deyib ki, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır:** “Azərbaycan həmçinin Günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin ediləcək. Hazırda biz Orta Asiya, Azərbaycan, Türkiyə, Avropa yaşıl enerji dəh**lizi üzərində işləyirik”.**

**Qırğızıstan Prezidenti Sadır Japarov çıxışında deyib ki, bu gün xarici təhdidlər mühüm əhəmiyyət kəsb edir:** “Biz regionda təhlükəsizliyin, sabitliyin təmini üçün öhdəlik götürmüşük. Türk dünyası üz-üzə qaldığı çağırışların öhdəsindən daha yaxşı gəlməlidir. Bu baxımdan Azərbaycan və Ermənistan liderləri arasında imzalanan birgə bəyanatı alqışlayırıq. Bunun sayəsində Cənubi Qafqazda davamlı sülh, sabitlik olacaq”.

**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev öz növbəsində TDT-nin Kibertəhlükəsizlik Şurasının təsis edilməsini təklif edib:** ""Azərbaycan və Ermənistan arasında sülhlə bağlı birgə bəyanatın imzalanmasını təqdir edirəm. Bu mühüm addım 30 illik münaqişənin həllində həlledici rol oynayacaq. Qazaxıstan TDT+ formatını təklif edir. Bununla biz təşkilatımızın nüfuzunu artırmış olarıq".

**Ardınca Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. O bildirib ki, bu gün bir çox məsələlərə etinasız yanaşan beynəlxalq sistemlə qarşı-qarşıyayıq:** “Təşkilatımızın dəyişən şərtlərə ayaq uyduran, beynəlxalq məsələlərdə ortaq duruş sərgiləyən təşkilata çevrilməsini arzu edirik. Müxtəlif təhlükəsizlik sınaqları ilə məşğul olduğumuz şəraitdə üçüncü tərəflərlə də dialoqun inkişafı mühümdür. Bu mənada TDT+ formatı üçüncü tərəflərlə münasibətlərimizə yeni nəfəs gətirəcək”.

“Türk dünyasının bölgəmizin sabitliyində və təhlükəsizliyində daha mühüm rol oynayacağına inanırıq”. Ərdoğan Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə belə deyib O bildirib ki, bu gün təşkilatın qətiyyətli mövqe ortaya qoyması vacibdir. Ərdoğan Türk dövlətlərinin birgə müdafiə potensialının formalaşdırılmasını zəruri sayıb, bu aspektdə iyul ayında müdafiə nazirlərinin keçirilmiş toplantısını yüksək dəyərləndirib.

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyev isə bildirib ki, TDT-nin beynəlxalq təşkilat kimi rolunun gücləndirilməsi üçün Strateji Dostluqla bağlı Sazişin qəbul edilməsi prosesi yekunlaşdırılmalıdır:** “Biz iqtisadi və ticari münasibətlərimizin sənaye sahəsində də gücləndirilməsini, Türk dövlətlərinin Sənaye Alyansının təsis edilməsini təklif edirik. Praktiki əməkdaşlığımız konkret layihələrlə həyata keçirilməlidir”.

“Avropadan fərqli olaraq burada müharibə, qeyri-qanuni miqrasiya, ailə dəyərlərini sıxışdıran nələrsə yoxdur”. Bunu isə **Macarıstanın Baş naziri Viktor Orban** deyib. Onun sözlərinə görə, Avropada çatışmayan inkişaf, qarşılıqlı hörmətdir: “Bunlar burada var. Bu gün burada güclü liderlər toplaşıb”.

❑ **HAZIRLADI: Emìl SALAMOĞLU, “Yenì Müsavat”**

YENİ MÜSAVAT
N 181 (8791) 8 oktyabr 2025




# Bakı restoranlarında "dodaqiçuran" qiymətlər

**Xidmət səviyyəsinin artması, turistlərin daha çox gəlməsi Bakıda restoranlarin da təqdim etdiyi lüks yeməklərin sayını artırır.**

"Yeni Sabah" Bakının ən bahalı restoranlarında qiymətlərlə maraqlanıb.

Bakının mərkəzində yerləşən "Four Seasons Hotel"in "Zafferano" restoranının menyusunda "Sea Bass Carpaccio" 55, "Pear and Gorgonzola" salatı 44 manata, xərçənglə hazırlanan "Lobster Linguine" isə 72 manata təklif edilir. Xəzər dənizindən əldə olunan kürü növlərinin qiyməti 443 manatdan başlayır, 1495 manata qədər artır.

"Hilton Baku" hotelinin 24-cü mərtəbəsində yerləşən "Sky Grill" restoranın menyusunda "Rib Eye" (qabırğa steyki) 150 manat, "Tenderloin" (mal filesi) 155 manat, "Striploin" (bel hissə steyki) 110 manat, "T-bone" (sümüküstü steyk) isə 140 manatdır.

Dəniz məhsulları və digər yeməklər arasında "Dorado" (çipura), "Seabass" (dil balığı), "Salmon" (qızılbalıq) və "Jumbo Prawns" (iri krevetlər) 75 manat, "Beef Medallion" (mal filesi tikələri) 95 manat, "Flavored Half Chicken" (yarım toyuq) isə 45 manata təklif olunur.

Dənizkənarı bulvarda yerləşən "Sahil Bar & Restaurant"da 30 qramlıq seçilmiş qara kürü 175 manat, sobada bişmiş beluqa balığı 60 manat, nərə balıq kababı 80 manatdır.

Ət menyusunda dana qabırğaları 60, nərə balığı nar sousunda 80, quzu səbəti 100-195 manat, ənənəvi toyuq ləvəngisi isə 40 manata təklif olunur.

Bakı mərkəzində yerləşən "Nakhchivan Restaurant" qədim interyeri və Naxçıvan mətbəxinin zəngin dadları ilə seçilir. Restoranın menyusunda yüksək qiymətlər diqqət çəkir. Burada "Quzu səbət" adlı yemək 80 manata, "Quzu ətindən sac" isə 65 manata təklif olunur.

Daha sadə, amma dadlı seçimlər arasında mal ətindən qovurma 35 manata, övriştə 29 manata alıcılara təklif edilir.

İçərişəhərdə yerləşən "Art Club Restaurant" həm milli mətbəxin ləzzətləri, həm də atmosferi ilə seçilir. Burada qiymətlər yeməyin tərkibinə və təqdimatına görə dəyişir.

Restoranın menyusundakı ən bahalı seçimlərdən biri 90 manata satılan "Xəzər nərəsi" (Caspian sturgeon) yeməyidir, bu balıq limon, nar sousu və tərəvəzlərlə təqdim olunur.

Daha sonra menyuda onu 50 manata təklif edilən "Qızılbalıq filesi" (Salmon) izləyir. Ənənəvi plov sevənlər üçün isə "Şah plov" 45 manata, "Turşu qovurma" və "Fisincan plov" isə 25 manata təklif olunur.

# Azərbaycandakı milyonçuların siyahısı

## İngiltərənin məşhur "Knight Frank" konsaltinq şirkəti ölkəmizlə bağlı son dəfə 2015-ci ildə belə statistika açıqlayıb



**Müxtəlif beynəlxalq hesabatlarda Azərbaycanda milyonçuların olduğu deyilir. Ancaq onların dəqiq sayı və kimlər olduğu bilinmir. Dünyanın əksər ölkələrində milyonçuların, hətta milyarderlərin siyahısı tərtib edilir və ictimaiyyətə çatdırılır. Lakin Azərbaycanda bu belə deyil. Qeyd edək ki, milyonçu deyərkən vəsaiti bir milyon dollardan çox olan adamlar nəzərdə tutulur.**

**İqtisadçı Natiq Cəfərli** Azərbaycanda rəsmi milyonçuların siyahısının niyə olmaması ilə bağlı yazı hazırlayıb.

İqtisadiyyat.az xəbər verir ki, o, paylaşımında qardaş Türkiyənin, Qazaxıstanın, Özbəkistan və Qırğızıstanın da bu tipli siyahısının tərtib olunduğunu qeyd edib.

İqtisadçı bildirib ki, bugünlərdə "Forbes" nəşri Türkiyənin ən varlı 10 insanının adını açıqlayıb:

**1)** Murat Ülker: 5 milyard 400 milyon dollar;

**2)** Şaban Cemil Kazancı: 4 milyard 500 milyon dollar;

**3)** Erman Ilıcak: 3 milyard dollar;

**4)** İpek Kıraç: 2 milyard 800 milyon dollar;

**5)** Mehmet Sinan Tara: 2 milyard 800 milyon dollar;

**6)** Semahat Sevim Arsel: 2 milyard 700 milyon dollar;

**7)** Ferit Faik Şahenk: 2 milyard 600 milyon dollar;

**8)** Filiz Şahenk: 2 milyard 400 milyon dollar;

**9)** Mustafa Rehmi Koç: 2 milyard 400 milyon dollar;

**10)** Hamdi Ulukaya: 2 milyard 200 milyon dollar.

Dost Qazaxıstanın da öz rəsmi siyahısı var: 7,1 milyard dollarla Veçeslav Kim 1-ci yerdədir, 2-ci yerin sahibi 5,8 mlrd. dollarla Timur Tirlovdur, siyahıda 5,3 mlrd. dollarla Timur Kulibayev, 3,7 mlrd. dollarla Bulat Utemuradov və s. insanlar yer alır.

Özbəkistan və Qırğızıstanın da öz siyahısı var: Var-dövləti 10 mln. dollardan çox olan 44 vergi ödəyicisi, Qırğızıstanda isə 10 mln. dollardan çox olan 47 vergi ödəyicisi var.

"Aydın məsələdir ki, Türkmənistanla bağlı belə məlumat yoxdur, yaxşı, bəs Azərbaycanda nədən rəsmi milyonçuların siyahısı yoxdur?"

İngiltərənin məşhur "Knight Frank" konsaltinq şirkəti dünya ölkələri, o cümlədən Azərbaycan üzrə milyonçu insanların sayını sonuncu dəfə 2015-ci ildə açıqlayıb. "The Wealth Report" adlı araşdırmada qeyd edilirdi ki, 2015-ci il üçün Azərbaycanda 10 minə yaxın milyonçu olub. Araşdırmaya əsasən, Azərbaycanda 2015-ci ildə kapitalı 1 milyon dollardan çox olan 5600 nəfər, kapitalı 10 milyon dollardan çox olan 240 nəfər, kapitalı 30 milyonnan çox olan 87 nəfər, kapitalı 100 milyon dollardan çox olan 10 nəfər var. Ölkəmizdə milyarder isə qeydə alınmayıb.

Bəzi ekspertlər iddia edirlər ki, Azərbaycanda milyonçuların siyahısının hazırlanıb elan edilməməsi mentalitetlə əlaqədardır.

Bizdə adət-ənənə ilə əlaqədar olaraq, milyonçuların siyahısı hazırlanıb, ictimaiyyətə elan edilmir. Sadəcə olaraq bu şəxslər barədə müəyyən məlumatlar var. Kimin böyük bir bağı, yaxşı bir evi və işlək şirkəti varsa, onu təxminən milyonçu kimi saymaq olar. Çünki elə bir bağın qiyməti 2-3 milyon manatdır. Yəni İstənilən bazar iqtisadiyyatı olan ölkədə, o cümlədən Azərbaycanda da çox imkanlı adamlar var. Bunların öz barəsində açıqlama verməmələri onların şəxsi mövqelərindən asılıdır.

Maraqlıdır ki, 2005-ci ildə Azərbaycanda "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında qanun qəbul edilsə də, bu, icra olunmamış qalır. Hətta "Korrupsiyaya qarşı mübarizə haqqında" qanunda məmurların özlərinin və ailə üzvlərinin gəlirlərinin bəyan edilməsi ilə bağlı öhdəlik qoyulsa da, indiyədək nəticəsi yoxdur...

❑ **"Yeni Müsavat"**

# Paytaxtda qızıl mağazaları bağlanır

## Məlumata görə, alıcı olmaması səbəbindən MUM-da 21 qızıl köşkü fəaliyyətini dayandırıb



**Qlobal əmtəə bazarlarında qızıl kəskin bahalaşır. Təkcə cari ilin əvvəli ilə müqayisədə qızılın qiyməti 600 ABŞ dollarından çox artıb. Dünya bazarında qızılın qiyməti 3868 dollara yaxınlaşıb. Analitiklərin fikrincə, ABŞ Federal Ehtiyat Sisteminin gələcək faiz siyasəti, yüksək inflyasiya riskləri və qlobal qeyri-müəyyənliklər fonunda qızılın qiymətində əlavə artım ehtimalı böyükdür. Unsiya üçün psixoloji hədd 4000 ABŞ dolları hesab olunur. Gümüşün qiyməti 14 ildən sonra ən yüksək həddə çataraq 47 ABŞ dollarını keçib. Platin isə 1600 dollar civarında qərarlaşaraq, son 12 ilin rekordunu yeniləyib. Proqnozlara görə, ilin sonuna qədər 1700 dollar diapazonunda sabitləşə bilər.**

Təbii ki, dünyada qızılın bahalaşması Azərbaycana da təsir edir. Bu təsir zərgərlik məhsullarının satışı və istehsalında özünü göstərir.

Onu da bildirək ki, ölkədə 999,9 əyar qızılın bir qramı təxminən 205 manat, 750 əyar qızıl 153 manat, 585 əyar qızıl isə 120 manat civarında satılır. Məlumata görə, dövriyyənin aşağı düşməsi səbəbindən Mərkəzi Univermaqda (MUM) 21 qızıl köşkü fəaliyyətini dayandırıb. Sahibkarların qərarına səbəb aylardır məhsullarının vitrində qalmasıdır. Bir sıra hallarda isə zinət əşyaları maya dəyərindən ucuz satılıb, bu da onlara sərf etmir.

Satıcılar sosial şəbəkələrdə yazaraq qeyd edir ki, həmişə get-gəlli olan, alıcı qaynayan univermaqda demək olar ki, satıcılardan başqa kimsə yoxdur.

**Liberal İqtisadçılar Birliyinin sədri Akif Nəsirli** Baki-xeber.com-a şərhində bildirib ki, son bir ildə dünya bazarında qızılın qiyməti yüksələrək tarixi maksimuma çatıb: "Bunun əsas səbəbləri qlobal iqtisadi qeyri-sabitlik, geosiyasi gərginliklər və investorların təhlükəsiz liman kimi qızıla yönəlməsidir. Azərbaycan bazarında isə bu artım ikiqat təsir göstərib. Həm dolların möhkəmlənməsi, həm də idxal qiymətlərinin yüksəlməsi nəticəsində qızılın yerli dəyəri daha da bahalaşıb. Nəticədə 1 qram qızılın qiyməti bəzi zərgərlik mərkəzlərində 120 manatı keçib.

Məlum vəziyyət istər-istəməz zərgəzlik məhsullarına da təsir edir. Zərgərlik mağazaları bildirirlər ki, əvvəlki illərlə müqayisədə satışlar təxminən 60-70% azalıb. Alıcıların bahalı zərgərlik məmulatlarına marağı itirib, əsas diqqət daha ucuz gümüş və ya bijuteriyaya yönəlib.

MUM rəhbərliyi isə qeyd edir ki, sahibkarların bir qismi icarə xərclərini ödəyə bilmədiyi üçün fəaliyyətini dayandırıb. Bu hal təkcə fərdi ticarətçiləri deyil, ümumilikdə zərgərlik sənayesini də zəiflədib".

**Ekspert hesab edir ki, yaranmış vəziyyətin bir neçə paralel səbəbi var:** "Məlumdur ki, Azərbaycanda zərgərlikdə istifadə olunan xammalın böyük hissəsi xaricdən gətirilir. Bu da qiymət artımını birbaşa sürətləndirir. Digər səbəb alıcılıq qabiliyyətinin aşağı olmasıdır. Son illərdə gəlirlərin artımı inflyasiya tempindən geri qaldığı üçün əhalinin lüks məhsullara xərcləməsi azalıb. Bununla yanaşı, kiçik qızıl köşkləri üçün icarə haqları və vergi yükü satış dövriyyəsinə nisbətən çox yüksəkdir, bu da qiymətə təsir edir.

Onu da deyim ki, bir çox vətəndaş artıq qızıl almaqdansa, valyuta və ya elektron investisiya alətlərinə üstünlük verir. Fikrimcə, bazarın dirçəldilməsi üçün bir sıra tədbirlər görülməlidir. ƏDV və idxal rüsumlarının müvəqqəti azaldılması qızılın qiymətini müəyyən qədər sabitləşdirə bilər. Böhran dövründə MUM və digər iri ticarət mərkəzləri sahibkarlar üçün icarə haqlarında güzəşt tətbiq edə bilər. Həmçinin qızıl məhsullarının hissə-hissə ödənişlə satışı və ya onlayn satış platformalarının genişləndirilməsi tələbatı qismən artıra bilər. Qızılın uzunmüddətli investisiya aləti kimi əhəmiyyətinin izahı alıcı davranışını dəyişə bilər".

YENİ MÜSAVAT
N 181 (8791) 8 oktyabr 2025

# Xəzərdən Azərbaycanı hədəf alanlar

## "Ölkəmizə qarşı istənilən təhdid cavabsız qalmayacaq"



**Sankt-Peterburqda Rusiya, İran, Qazaxıstan və Azərbaycan Hərbi Dəniz Qüvvələri komandanlarının görüşü olub. Görüşdə Xəzər dənizində əməkdaşlıq, regional təhlükəsizlik və birgə təlimlər kimi məsələlər müzakirə edilib.**

Təhlilçilərə görə, İran Hərbi Dəniz Qüvvələri komandanı Şahram İranin Sankt-Peterburqa səfəri təkcə Xəzər dənizindəki texniki əməkdaşlıq məsələləri ilə bağlı deyildi. Unutmaq olmaz ki, İran və Rusiya son illərdə xüsusilə Xəzər istiqamətlərində hərbi əməkdaşlığı dərinləşdiriblər. İki ölkənin donanmaları bir neçə dəfə birgə təlimlər keçirib, qarşılıqlı liman səfərləri təşkil olunub. Sankt-Peterburqdakı bu görüş də həmin xəttin davamıdır, lakin bu dəfə daha gərgin və təhlükəli beynəlxalq kontekst fonunda baş verir.

Musavat.com-a görə, iki rejimin yaxınlaşması regionda balansın pozulması riskini artırır. Xüsusilə də, Azərbaycanla Rusiya və İran arasında sərhədlərin kəsişdiyi geosiyasi məkanda belə hərbi koordinasiya təşəbbüsləri diqqətlə izlənilməlidir. Tarixi nümunələr göstərir ki, regionda gərginlik artdıqda Rusiya və İran hərbi təlimlər vasitəsilə güc nümayişi edir. Məsələn, bu ilin yayında İranla Rusiya arasında Xəzər dənizində birgə təlimlər keçirilib. Rusiya ötən ay da gözlənilmədən Xəzərdə təlimlərə başlamışdı. Bəllidir ki, Xəzərdə Rusiyanın çox böyük hərbi dəniz donanması var. Özü də sovet dövründə saxlanılan hərbi qüvvələr kiçik donanma hesab olunurdusa, Xəzərdə Rusiyanın saxladığı dəniz donanması çoxdan bütün parametrlərinə görə hərbi dəniz donanmasının göstəricilərinə malikdir. Rusiya Xəzər üzərindəki hərbi nəzarəti bütövlüklə öz üzərinə götürmək iştahasındadır.

Rusiya və İran bu cür hərbi manevrlərlə guya sıx əməkdaşlıq görüntüsü yaratmağa çalışır. Lakin əslində tərəflər arasında artan inamsızlıq, geosiyasi ziddiyyətlər və qarşılıqlı məyusluq var.

Xatırladaq ki, 2018-ci il avqustun 12-də Xəzərin statusuna dair Konvensiya imzalanıb. Bu sənəd Xəzərin hüquqi statusunu müəyyənləşdirdi və sahil dövlətlərinə (Azərbaycan, Rusiya, İran, Qazaxıstan, Türkmənistan) dəniz resursları, sərhəd və təhlükəsizlik məsələlərində daha aydın hüquqi çərçivə verdi. Azərbaycan Milli Məclisi 2019-cu ildə sənədi ratifikasiya edib və bununla Konvensiya Azərbaycan üçün hüquqi qüvvəyə minib. Amma İran parlamenti hələ də konvensiyanı ratifikasiya etməyib.

Yeri gəlmişkən, avqustun 22-də Prezident İlham Əliyev Azərbaycanın Xəzərdə gücləndiyi haqda da danışıb. "Biz hərbi gücümüzü artırırıq. İkinci Qarabağ müharibəsindən sonra həm Xəzər dənizindəki, həm də bütün digər silahlı qüvvələrimizin inkişafı ilə aləqədar minlərlə, - sayını demək istəmirəm, amma böyük sayda, - xüsusi təyinatlı qüvvələrimizin say tərkibini artırmışıq, yeni komando qüvvələri yaradılıb. Biz hər an müharibəyə hazır olmalıyıq "-deyə, ölkə başçısı qeyd edib.

Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədr müavini Günay Ağamalı "Yeni Müsavat"da ölkəmizə qarşı istənilən təhdidin cavabsız qalmayacağını bildirdi: "Xəzər dənizi sahilində yerləşən dövlətlər arasında əməkdaşlıq və təhlükəsizlik məsələlərinin müzakirəsi, şübhəsiz ki, regional sabitlik baxımından önəmlidir. Lakin son vaxtlar müşahidə olunan proseslər, xüsusən də Rusiya və İranın hərbi təlimləri əməkdaşlıq görüntüsündən daha çox güc nümayişi xarakteri daşıyır. Bu cür təşəbbüslər Xəzərdə balansın pozulması riskini artırmaqla yanaşı, Azərbaycanın milli maraqlarına və təhlükəsizliyinə yönəlmiş təhdidlər kontekstində də diqqətlə izlənilməlidir. Rusiya və İran tarixən Xəzər və Cənubi Qafqaz kontekstində geosiyasi rəqabət edən tərəflər olduğu üçün bu iki dövlətin yaxınlaşması situativ maraqlar üzərindən inkişaf edir. Məsələ Xəzər hövzəsinə yaxınlaşmaqdırsa, burada əsas məqsəd Azərbaycan, Qazaxıstan, Türkmənistan və daha geniş spektrdə Orta Asiya xəttində inkişaf edən dinamiklıklə bağlıdır. Yəni bu istiqamətdə iqtisadi-ticari və enerji əməkdaşlığının dərinləşməsi, Rusiya və İrandan yan keçən iqtisadi marşrutların aktivləşməsi Moskva-Tehran cütlüyünü narahat edir. Məhz bu səbəbdən hər iki ölkə çəkindirmə metodlarını işlək mexanizmə çevirmək cəhdləri edir. Azərbaycan dövləti müstəqilliyini, ərazi bütövlüyünü və enerji təhlükəsizliyini qorumaq gücünə malikdir. Ölkə başçımız cənab İlham Əliyevin də qeyd etdiyi kimi, ordumuzun, o cümlədən Xüsusi Təyinatlı Qüvvələrin, xüsusilə Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarının gücləndirilməsi Azərbaycanın istənilən aqressiyaya adekvat reaksiya vermək gücünü formalaşdırır. Bu, sadəcə, müdafiə potensialının artırılması deyil, eyni zamanda regionda sabitliyin təminatına töhfədir.

Xəzərin hüquqi statusunu müəyyən edən 2018-ci il Konvensiyası Azərbaycanın mövqeyinin və beynəlxalq hüquqa sadiqliyinin göstəricisidir. Azərbaycan bu sənədi ratifikasiya etməklə sahil dövlətləri arasında əməkdaşlığın hüquqi əsaslarını dəstəklədiyini nümayiş etdirib. Təəssüf ki, İran parlamentinin hələ də konvensiyanı ratifikasiya etməməsi bu istiqamətdə suallar doğurur.

Azərbaycanın Xəzərdə böyük iqtisadi maraqları və beynəlxalq tərəfdaşlıqları mövcuddur. Burada həyata keçirilən enerji və nəqliyyat layihələri yalnız ölkəmizin deyil, həm də regionun və Avropanın təhlükəsizlik maraqlarına xidmət edir. Bu baxımdan, müttəfiq Türkiyə başda olmaqla, dost dövlətlərin, eləcə də Qərb tərəfdaşlarının Azərbaycanın yanında olması strateji zərurətdir.

Biz bir daha bəyan edirik ki, Azərbaycanın milli maraqlarına qarşı yönəlmiş hər hansı təhdid cavabsız qalmayacaq. Ölkəmiz müstəqil siyasətini davam etdirəcək, Xəzərdə və bütövlükdə regionda sülhün və təhlükəsizliyin hər zamankı kimi təminatçısı olacaq".

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev hesab edir ki, münasibətlərdə müəyyən gərginlik zatən çoxdan var:** "Yəni belə hesab edə bilərik ki, Azərbaycan və Qazaxıstan eyni mövqedən çıxış edəcək. Amma Rusiya və İranın sona qədər bir mövqedə olacağı inandırıcı deyil. Rusiya çox istəyir ki, Xəzər vasitəsilə təsir və təzyiq etsin. Dediyim kimi, bu istək onlarda çoxdandır ki, var. Amma indiyədək nə ediblər ki, bundan sonra da edə bilsinlər. Ümumiyyətlə, Rusiya-Ukrayna müharibəsi gedişatında ölkənin müxtəlif yerlərində quruda, dənizdə hərbi təlimləri tez-tez keçirir. Bu da informasiya müharibəsində Rusiyanın əvvəlki kimi güclü hərbi potensialının olması təbliğatına hesablanıb. Sankt-Peterburqda olan görüş vasitəsilə də Xəzər dənizində proseslərə özünün nəzarət etdiyini göstərməyə çalışır. Amma dediyim kimi, bunu sıradan bir görüş hesab edirəm. Xəzəryanı dövlətlər olaraq ortada olan münasibətlərə baxmayaraq, bu səpkili görüşlərdə iştirak etmək normaldır. Əsas odur ki, kimsə özünü daha böyük və güclü göstərmək fikrinə düşməsin. Əgər belə olarsa, təbii ki, gələcəkdə hər hansı təmas və görüşlərin olması minimuma enəcək. Hazırda Azərbaycan və Qazaxıstan özlərinin milli təhlükəsizliklərini təmin etmək istiqamətlərində lazım olan addımlar atırlar. Xəzər regionunda da bu istiqamətdə addımlar atırlar".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



## Tiflis iğtişaşlarına Bakıdan baxış

### Tural Abbaslı: "Əksəriyyət "Gürcü Arzusu"nu dəstəkləyir"

**AĞ Partiyanın sədri Tural Abbaslı Sherg.az-a deyib ki, Gürcüstanda seçkisonrası etirazlar artıq adi hal alıb. Partiya rəhbəri bildirib ki, bundan öncəki seçkilərdə də Avropa İttifaqı ilə hakim "Gürcü Arzusu" Partiyasının qarşıdurması ortada idi:**

"Rusiyanın Ukrayna ilə müharibəyə başlamasından və Qərbdən gələn, gözlə görünməyən təhdidləri sezdikdən sonra Gürcüstan hökuməti qərbyönlü siyasəti balanslaşdırılmış siyasətlə əvəzlədi. Qonşu ölkədə hökumətdən narazılıq aksiyaları, müxalifətin etirazları bundan sonra açıq müstəvidə gündəmə gəlməyə başladı. "Xarici agentura haqqında" qanunun qəbul edilməsi, QHT-lərin fəaliyyətinin nəzarətə götürülməsi, milli maraqların önə çəkilməsi istiqamətində addımların atılması ilə Avropa İttifaqı ilə gürcü hökuməti arasında münasibətlər kəskinləşdi. Hətta Aİ bəzi sahələrdə Gürcüstana sanksiyalar tətbiq etdi. Həmin gündən etibarən Avropadan hakim "Gürcü Arzusu"na basqılar artdı. Əslində Qərbdən gələn təzyiqlər Rusiyanın Gürcüstana basqılarından o qədər də fərqlənmir".

**T.Abbaslının fikrincə, Rusiya Moldovada nə etmək istəyirsə, Gürcüstanda da ona nail olmağa çalışır:** "Avropadan maliyyələşən QHT-lər, media, o cümlədən Qərbin təbliğatına uyan vətəndaşlar bunu Rusiya-Avropa savaşı kimi görürlər. Guya Gürcüstan iqtidarı Rusiyaya meyillənib. Əslində isə Qərbin təzyiqləri birbaşa "Gürcü Arzusu"nun balanslı siyasətinə, Avropa ilə məsafəli davranmasına qarşı yönəlib. Bu, qonşu ölkədə özünü müxtəlif formalarda göstərəcək. Sadəcə, seçkilərdə deyil, hansısa qanun qəbul edilərkən də gürcülərin müəyyən qismi küçələrə axışacaq, etiraz aksiyaları keçirəcək, hökuməti tənqid edəcəklər. Bu bir "savaşdır". Amma görünən odur ki, Gürcüstanda əksəriyyət "Gürcü Arzusu"nun siyasətini dəstəkləyir və ölkənin yenidən qarışmasını, stabilliyin pozulmasını istəmir. "Bəs küçələrə çıxanlar, etiraz edənlər kimlərdir?" sualına müxtəlif cavablar vermək olar. Bəllidir ki, uzun müddətdir Gürcüstanda Qərbdən, Avropa institutlarından maliyyələşən, qrantlar alan dairələr, media, qeyri-hökumət təşkilatları olub. Onların gürcü ictimaiyyətinə təsirini zəif görmək olmaz. Qarşı tərəfin gürcülər arasında təbliğatı davam edəcək. Sonda nəticənin nə olacağını indidən dəqiq demək çətindir. Bunu zaman göstərəcək. Ən azından onu söyləmək mümkündür ki, yaxın dönəmdə heç bir dəyişiklik olmayacaq".

# Nobel həftəsi: "O əjdahadan" hələ də bizdə yoxdur

## Misir Mərdanov: "Müsəlman ölkələrində, yaxud da Türk dünyasında elə bir mühit yoxdur ki, Nobel mükafatı alan alimlər yetişsin..."

**Oktyabrın 6-da 2025-ci ilin Nobel laureatlarının adları açıqlanmağa başlayıb. "Nobel həftəsi" oktyabrın 13-dək keçiriləcək. Ənənəyə uyğun olaraq, Nobel Mükafatları Komitəsi tərəfindən hər il elmin ayrı-ayrı sahələri üzrə mühüm kəşflərə imza atmış görkəmli alimlərə Nobel mükafatı təqdim olunur.**

İlk olaraq fiziologiya və tibb sahəsində Nobel laureatının adı açıqlanıb. Fiziologiya və ya tibb sahəsində 2025-ci ilin Nobel mükafatı laureatları amerikalı alimlər Meri E.Brunkov və Fred Ramsdell, həmçinin yapon tədqiqatçısı Şimon Sakaquçidir. Onlar bu yüksək mükafata "periferik immun tolerantlıqla bağlı kəşflərinə görə" layiq görülüblər. Bu kəşflər, immun sisteminin öz bədəninə zərər verməsinin qarşısını alan mexanizmlərin anlaşılmasına gətirib çıxarmış və hazırda klinik sınaqlarda olan müalicə metodlarının inkişafına kömək edib. Bundan sonra kimya, sonra ədəbiyyat üzrə laureatın adı məlum olacaq. Oktyabrın 10-da isə Osloda 2025-cü ilin Sülh mükafatı laureatının adı açıqlanacaq.

Qeyd edək ki, ötən il Nobel mükafatı üçün müəyyən edilmiş məbləğ - 11 milyon İsveç kronu (SEK) təşkil edib. Bu məbləğin artırılıb-azaldılmasına Nobel Fondu qərar verəcək.

Azərbaycan alimlərinin Nobel mükafatından kənarda qalmasının əsas səbəbi ciddi elmi kəşflərin olmamasıdır. Məlumatlara görə, İkinci Dünya müharibəsindən sonra bütün elm sahələri üzrə Nobel mükafatçılarının əksəriyyəti Amerika alimləridir. Bu da Amerikada ilk növbədə böyük və nüfuzlu universitetlərin yerləşməsi ilə bağlıdır. Bu universitetlərdə də dünyada analoqu olmayan tədqiqatlar aparılır. Həmin tədqiqatların çoxu da elm sahələri üzrə böyük kəşflərə və nəticədə Nobel mükafatına təqdim edilir. Bu mənada Nobel yarışında Azərbaycanı təmsil edən alim(lər) yoxdur. Ədəbiyyat və sülh üzrə mükafatlara gəlincə isə bu sahə üzrə də məsələ kifayət qədər çətindir. Bu sahələrdə də mükafat almaq üçün şübhəsiz ki, dünya səviyyəli şair və yazıçı olmaq gərəkdir. Həmin yazıçının, şairin əsərləri ideal səviyyədə olmalıdır.

Mövzu ilə bağlı "Yeni Müsavat"a şərh verən **sabiq təhsil naziri, Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov** bəzi məqamlara aydınlıq gətirib: "Nobel mükafatı məsələsi uzun müddətdir ki, müzakirə olunur. Nəinki Azərbaycan, Gürcüstan, Ermənistan, eləcə də Orta Asiya, Qazaxıstandan heç kim Nobel almayıb. Bir neçə statistik rəqəmi qeyd edim. Son ilin məlumatlarına görə, elm üzrə Nobel mükafatı almış insanların 290 nəfəri, yəni 42,06 faizi ABŞ-də çalışan adamlardır. 92 nəfər - 13,5 faiz Birləşmiş Krallıqda yaşayan və işləyən adamlardır. 74 nəfər - 11 faizi Almaniyada, 39 nəfər Fransada, 22 nəfər Yaponiyada, 20 nəfər İsveçrədə yaşayır, baxmayaraq ki, balaca ölkədir. 19 nəfər İsveç, 16 Rusiya, 14 nəfər Kanada, 14 nəfər Niderland, 12 nəfər Avstriya, 10 nəfər Danimarka və s. Fikir verirsinizsə, bunların içərisində bir müsəlman ölkəsinin adı yoxdur. Müsəlmanlardan Nobel mükafatı alanların hamısı Qərbdə və ABŞ-də işləyib, çalışanlardır. Yəni elmin bu və digər sahəsində uğur qazanmaqda həlledici rolu mühit oynayır. Bir neçə dəfə türk, ya da pakistanlı bu mükafatı alıb, amma onların həyatını oxusanız görərsiniz ki, ABŞ-də təhsil alıb və elmi tədqiqat işləri aparıblar. Yəni bu heç də bizim elmimizin aşağı səviyyədə olmasına dəlalət eləmir. Məsələn, vaxtilə sovetlər məkanı deyilən ölkədə yaşayırdıq, Azərbaycan ölkənin 15 respublikasından biri idi. O ölkənin də elm üçün əsas şəraiti Moskvada, keçmiş Leninqradda, Novosibirskdə yaranmışdı. Böyük alimlər əsasən oralarda yetişirdi. Sizin sualınıza cavab olaraq demək istəyirəm ki, hələ ki bizdə - müsəlman ölkələrində, yaxud da Türk dünyasında elə bir mühit yoxdur ki, Nobel mükafatı alan alimlər yetişsin. Bunun üçün çalışmaq lazımdır. Elmlər Akademiyasının, Elmi Tədqiqat İnstitutunun, Elm və Təhsil Nazirliyinin üzərinə çox böyük vəzifələr düşür".



**Misir Mərdanov "Dünya miqyasında irəli getməməyin bir səbəbi də maliyyə göstərilir. Azərbaycanda elm sahəsinə çox az vəsait ayrılır, bununla nə dərəcədə razılaşırsınız" sualına belə cavab verib**: "Əlbəttə, bu fikirlə razıyam. Rəqəm göz qabağındadır, elm və təhsilə inkişaf etmiş ölkələrlə müqayisədə az vəsait ayrılır. Bunun da səbəblərindən biri budur ki, biz 30 ildən çox idi ki, torpaqlarımızın 20 faizini itirmişdik. İndi torpaqlarımızı azad etmişik, büdcəmizin xeyli bir hissəsi həmin ərazilərdə infrastrukturun yaranması, əhalinin ora köçürülməsi, onlar üçün yaşayış binalarının tikilməsi üçün böyük xərc tələb olunur. Bir səbəb də budur ki, hələ biz istədiyimiz vəsaiti elmə və təhsilə ayıra bilmirik. Ümid edirəm ki, gələcəkdə elm və təhsilə ayrılan vəsait artırılacaq. Azərbaycanda da Nobel mükafatı almağa iddia edən alimlər tapılacaq".

**Sabiq nazir dünyada Nobel mükafatını daha çox yəhudilərin alması məsələsinə də münasibət bildirib**: "Müəyyən mənada ikili standartlar var. Elm sahəsində 600-dən çox Nobel mükafatı verilib, bunların böyük əksəriyyətini yəhudilər təşkil edir. Əlbəttə, etiraf etmək lazımdır ki, yəhudilər arasında dünyanın tanınmış alimləri başqa millətin nümayəndələrinə nisbətən daha çoxdur. Hətta keçmiş sovetlər birliyində də riyaziyyat sahəsində böyük alimlərin əksəriyyəti ya yəhudi idi, ya da yəhudilərlə yaxından əlaqəsi var idi. Mükafatların verilməsi məsələsi də məhz onların adamlarından asılı olur. Orada da haqq, ədalətlə həll olunduğunu demək olmaz. Hər halda, mükafatın münsiflər heyətinə əsasən Qərb ölkələrinin, Amerikanın vətəndaşları daxildir. Onlar çalışırlar ki, öz vətəndaşları daha çox yer tutsun. Ancaq fikrimcə, hələlik bizim o səviyyəyə layiq olan, o yarışda iştirak edəcək gücdə olan alimimiz yoxdur".

**Misir Mərdanov "Yaxınlarda riyaziyyat üzrə beynəlxalq olimpiadada bir məktəblimiz belə qızıl, ya gümüş medal ala bilmədi. Niyə bizdə riyaziyyatçı yetişmir, beynəlxalq olimpiadada yüksək yer qazana bilmirik" sualına belə cavab verib**: "Mənə belə gəlir ki, riyaziyyat üzrə beynəlxalq olimpiadalarda yer tutmaq üçün əvvəlcədən hazırlaşmaq lazımdır. Kim desə ki, orta məktəbdə verilən bilik və bacarığa əsasən şagird gedib dünya olimpiadasında yer tutur, mən ona inanmıram. Tarixən belə olub ki, Təhsil Nazirliyi bir olimpiada mərkəzi olub. Bu gün də var. O olimpiada mərkəzində gərək şagirdlər respublikanın regionlarından yuxarı sinif şagirdləri arasında mütləq riyazi biliyi olan qabiliyyətli uşaqlar seçilsin. Onlar müəyyən proqramlarla bu sahədə səriştəsi olan alimlərin, mütəxəssislərin köməyi ilə hazırlaşsınlar. Onda qələbə qazanmağa ümid etmək olar. Məncə, ölkədə belə bir mərkəz olmalıdır. Bu mərkəzdə uşaqlar məktəbdən müəyyən müddətə ayrılıb, ayrıca məşğələlər keçməlidir. Onda ümid etmək olar ki, həm riyaziyyat, həm də digər elm sahəsində olan olimpiadalarda uğur qazana bilərik".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Xaricdə təhsil alan 9 nəfərin diplomu saxta çıxdı

**"2024-cü ilin aprel ayından 2025-ci ilin aprel ayına qədər Qaydaların 4.1-ci bəndinin tələblərinə uyğun olmadığı üçün kvalifikasiyasının tanınması barədə imtina qərarı verilmiş 12 nəfərin müxtəlif yollarla saxta tanınma şəhadətnaməsi əldə etmələri tərəfimizdən aşkar olunub və qanunvericiliyin tələblərinə uyğun olaraq hüquqi qiymət verilməsi məqsədilə aidiyyəti qurumlara göndərilib".**

Bu barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyindən məlumat verilib.

"Təəssüflə qeyd edirik ki, son 5 ay ərzində 9 belə hal aşkarlanıb.

Bildiririk ki, bəzi şəxslər tərəfindən tanınma qərarlarının müxtəlif qeyri-rəsmi üsullarla dəyişdirilə biləcəyi ilə bağlı verilən vədlər həqiqətə uyğun deyil və bu cür hallara yol verilməsi qanunvericilikdə müəyyən olunmuş məsuliyyətə, o cümlədən cinayət məsuliyyətinə səbəb ola bilər. Bu baxımdan, vətəndaşlara yalnız qanunvericilikdə müəyyən olunmuş rəsmi prosedurlar çərçivəsində hərəkət etmələri tövsiyə olunur", - məlumatda qeyd olunub.

Qeyd edək ki, xaricdə əldə olunmuş kvalifikasiyaların tanınması Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli, 2306 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları" (bundan sonra Qaydalar) əsasında həyata keçirilir. Qeyd edək ki, xaricdə əldə olunmuş kvalifikasiyaların tanınması üçün Qaydaların 4-cü bölməsində təsbit olunan tanınmaya dair tələblərin tam təmin olunması zəruridir.

# Distant təhsil alanların diplomları niyə tanınmır?

**"Distant təhsil alan tələbələrin diplomlarının tanınmamasının ilk səbəbi ondan ibarətdir ki, "Təhsil haqqında" Qanunda bu, təsbit olunsa da, onun tanınması üzrə mexanizm hələ formalaşmayıb".**

Bu barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə Heyətinin sədri Tural Əhmədov Təhsil TV-də yayımlanan "Təhsildəyik" verilişində söyləyib.

Sədr bildirib ki, ölkəmizdə yalnız əyani və qiyabi təhsilalma forması üzrə kvalifikasiyanın tanınması həyata keçirilir: "Son dövrlərdə vətəndaşlarımız bəzi ölkələrdə "açıq öyrətim" adı altında, yəni məsafədən (distant) təhsilalma formasına uyğun kvalifikasiyanı təqdim edirlər ki, bu da birmənalı şəkildə imtina ilə nəticələnir.

Texnoloji inkişaf kontekstində, təbii ki, müxtəlif ali təhsil müəssisələrinin məsafədən təhsili həyata keçirdiyini görürük və sözsüz ki, yeniliklər kontekstində bunu təqdir edirik. Amma görünür, ənənəvi təhsilə münasibətdə xaricdə əldə olunan kvalifikasiyaların keyfiyyəti hələ qənaətbəxş səviyyədə olmadığına görə, yəqin ki, diplomların tanınması da bu baxımdan dəyərləndirilir".

YENİ MÜSAVAT
N 181 (8791) 8 oktyabr 2025

# Azərbaycanda İslam istiqrazları - kimlər qazanacaq?

## İslam maliyyə sistemini fərqləndirən əsas cəhət faizin olmamasıdır

**Azərbaycanda İslam istiqrazlarının - sukukun tətbiqi üçün hüquqi və tənzimləyici çərçivə hazırlanır. Layihə Azərbaycan Mərkəzi Bankının müraciəti əsasında İslam İnkişaf Bankı İnstitutu (IsDBI) tərəfindən İslam maliyyəsi qrantı hesabına həyata keçiriləcək. Layihə çərçivəsində Azərbaycanda sukuk və digər İslam maliyyə məhsullarının buraxılışını tənzimləyən qanunvericilik bazası hazırlanacaq, maliyyə institutlarının risklərin idarə olunması sahəsində potensialı gücləndiriləcək, İslam maliyyəsinin inkişafını izləmək üçün monitorinq mexanizmi yaradılacaq və yekunda ölkənin ilk sukuk emissiyası həyata keçiriləcək.**

Layihə çərçivəsində Azərbaycanın kapital bazarının hazırkı vəziyyəti qiymətləndiriləcək, Malayziya, İndoneziya, Bəhreyn, BƏƏ, Qazaxıstan, Türkiyə və Səudiyyə Ərəbistanı kimi ölkələrin təcrübəsinə əsaslanan benchmark araşdırması aparılacaq. Daha sonra Milli Sukuk Çərçivəsi, Şəriət və korporativ idarəetmə qaydaları hazırlanacaq. Bununla bağlı tədbirlərin icrası 15 ay müddətində həyata keçiriləcək.

Mərkəzi Bankdan qeyd edilib ki, bu təşəbbüs Azərbaycanın maliyyə sektorunda ilk dəfə İslam istiqrazlarının tətbiqini təmin etməklə, kapital axınını artırmağa, investor bazasını genişləndirməyə və infrastruktur layihələrinin maliyyələşdirilməsinə şərait yaradacaq.

Qeyd edək ki, Azərbaycanda İslam maliyyə alətlərinin tətbiqi məsələsi uzun illərdir müzakirə olunsa da, indiyədək real addımlar atılmamışdı. Yalnız 2024-cü ildə Azərbaycan Mərkəzi Bankının təsdiq etdiyi Maliyyə sektorunun inkişaf Strategiyasında bununla bağlı hüquqi çərçivənin yaradılması öhdəliyi qoyulub. Yaxın 2 ildə investisiya şirkətləri yeni məhsul olan sukukun tətbiqinə nail olacaqlar.

Qeyd edək ki, islam maliyyə sisteminin əsasını şəriət qanunları təşkil edir. Ənənəvi maliyyə sistemindən fərqləndirən əsas cəhət faizin olmamasıdır, yəni faizsiz kreditlərin verilməsidir. Bu sistemdə faiz anlayışı yoxdur, əvəzində "mənfəət marjası" (profite rate) adlı yanaşma var. Elə buna görə də islam bankçılığının nüfuz göstəricisi də onun həm faizsiz, yaxud halal olması, həm də ucuz və sərfəli şərtləri ilə bağlıdır.

İslam maliyyə sisteminin əsaslandığı şəriət qanunları yalnız real istehsala və real aktivlərə sərmayə qoymağa icazə verir, spekulyasiyalarla işləməyi isə qadağan edir. Bu, onun son dövrlərdə bütün dünyada populyarlaşmasının əsas səbəblərindən biridir.

Dünyada, xüsusilə də Malayziya, İran, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, ABŞ, Bəhreyn, Qatar və Böyük Britaniya kimi ölkələrdə İslam kapital bazarları və maliyyə institutlarının artımı hiss olunur.




İslam bankçılığının şəriətdən doğan bir neçə cəhəti var ki, bu cəhətlər onu adi bankçılıqdan fərqləndirir. Belə ki, İslam bankçılığında bütün alqı-satqı və kirayə əməliyyatları yalnız real, göz qabağında olan aktivlərə əsaslanır. Bu növ bankçılıqda faizlər (ərəbcə "Riba") qadağandır.

İslam maliyyə sistemində tütün və alkoqol məhsullarına, qeyri-halal mallara, silahlara sərmayə qoymaq və onların ticarətini aparmaq olmaz. Qumar və şəriətə zidd olan başqa bank və maliyyə sahələrinə də sərmayə qoymaq və oradan gəlir götürməyə çalışmaq qadağandır.

İslam maliyyəçiliyini fərqləndirən maraqlı cəhətlərdən biri də hər hansı risklərdən yan keçə bilmək üçün mal və xidmət bazarlarında həyata keçirilən bütün əməliyyatların şəffaf və açıq olmasının vacibliyidir.

Yuxarıda sadalananlara rəğmən, bazar iqtisadiyyatı ilə ziddiyyət təşkil etməməsi və bazar iqtisadiyyatı şəraitində normal fəaliyyət göstərə bilməsi İslam maliyyə sistemini, xüsusilə İslam bankçılığını cəlbedici edir və ona tələbat təkcə müsəlman ölkələrində yox, Qərb ölkələrində də artır.

İslam maliyyəsinin yeganə iştirakçıları İslam bankları deyil. Onlardan başqa ənənəvi banklarda olan İslam pəncərələri, digər İslam maliyyə institutları, İslam Kapital bazarları, məsələn, investisiya bankları və s., habelə İslam sığortası (ərəbcə "Takaful") da mövcuddur.

İslam bank institutlarının fəaliyyətini tənzimləyən beynəlxalq qurumlar da var.

Bunlardan 2002-ci ildə Malayziyada yaradılmış İslam Maliyyə Xidmətləri Şurası (IFSB), əsası 1991-ci ildə Bəhreyndə qoyulmuş İslam Maliyyə İnstitutlarının Mühasibat və Audit Təşkilatı (AAOIFI) və 1975-ci ildə yaradılmış İslam İnkişaf Bankını nümunə göstərmək olar.

Maraqlıdır ki, artıq şimal qonşumuz Rusiyada İslam bankçılığının tətbiqinə başlanıb. 2023-cü il sentyabrın 1-dən Rusiyanın dörd regionunda - Başqırdıstan Respublikası, Tatarıstan Respublikası, Çeçenistan Respublikası və Dağıstan Respublikası ərazisində tərəfdaş (islam) maliyyələşdirmə üzrə layihəyə start verilib. Pilot sayılan layihə iki il - 2025-ci il sentyabrın 1-dək davam edəcəkdi, artıq onun davam etdirilməsi və əhatə dairəsinin genişləndirilməsinə qərar verilib.

Rusiya Mərkəzi Bankından verilən açıqlamada bildirilir ki, qurum İslam bankçılığında "iqtisadiyyatın kreditləşdirilməsinin və maliyyə sektorunun inkişafı üçün böyük imkanlar" görür. Bundan əlavə, hesab olunur ki, İslam bankçılığının hüquqi qeydiyyatı müsəlman ölkələrindən Rusiyaya BƏƏ, Türkiyə, Səudiyyə Ərəbistanı, Misir və digər İslam ölkələrindən böyük investorları cəlb edə bilər.

Azərbaycanın ilk tətbiq etməyə hazırlaşdığı Sukuk İslam maliyyəsinə uyğun olaraq sabit gəlirli ənənəvi istiqrazlara alternativ olaraq istifadə edilən, müsəlman ölkələrində yayılmış bir maliyyə sertifikatıdır. Bu sertifikatlar, investorlara müəyyən bir aktivin (məsələn, bir layihənin və ya bir əmlakın) gəlirindən pay almaq imkanı verir, lakin faiz (riba) qadağan olduğu üçün gəlir faiz deyil, aktivdən əldə olunan mənfəət və ya icarə ödənişi şəklində olur.

Beləliklə, sukuk hər hansı bir aktivdə, məsələn, binada, avadanlıqda mülkiyyət hüququna əsaslanır. Sukukun ən geniş yayılmış növlərindən biri mudarabah sukukudur. Bu, mənfəətə və zərərə şərik prinsipi ilə tətbiq olunan maliyyələşmə üsuludur. Bu zaman bir tərəf proyekti tamamilə maliyyələşdirir, digər tərəf isə biznesin idarə edilməsini həyata keçirir. Belə halda maliyyələşdirən tərəf Rabbul-Mal (investor), digər tərəf isə Mudarib (Manager) adlanır. Şəriklik payları əvvəlcədən müəyyən olunur. Uğursuzluq halında maliyyələşdirən tərəf tamamilə kapitalını itirir, mudarib isə yalnız vaxtını və tətbiq etdiyi əməyi itirir.

Muşarakah Sukukun hər iki tərəfi maliyyələşmədə iştirak edir.

İcara sukuku hər hansı bir aktivə - daşınmaz əmlaka mülkiyyət və rental gəlirlər əldə olunması hüququnu verən sukuk növüdür. İcara sukuku İslam kapital bazarlarının sabit gəlir vəd edən alətlərindəndir.

Murabaha Sukuku - burada emitent malın satıcısı, sukuka abunə yazılanlar malın alıcısı, reallaşdırılmış nağd vəsaitlər isə malın alış qiymətidir. Sukuk sahibləri malın mülkiyyətçiləridir və bu da həmin malın növbəti satışı zamanı yaranan gəliri mənimsəməyə hüquq verir. Murabaha zamanı ilk satış nağd ödənişlə, ikinci satış isə hissəli ödənişlə həyata keçirilir. Bu iki satış eyni tsikldə baş verir və sonuncu alış üzrə borc yaradır. Borcu təmsil etdiyi üçün də bu sukukların təkrar fond bazarında tranzaksiyası bütün məzhəblərin ittifaqına görə haramdır. Bu müddəa qlobal miqyasda İslam Maliyyə İnstitutları üçün audit/maliyyə/mühasibatlıq standartlarını müəyyənləşdirən AAOIFI-nın (Accounting and Auditing Organisation for Islamic Financial Institutions) müvafiq standartında da əks olunub. Murabaha sukuku sabit gəlir vəd edən İslam maliyyə alətlərindəndir.

Salam sukuku satıcının məhsulu nağd ödəniş qarşılığında gələcəkdə müəyyən olunmuş bir tarixdə alıcıya çatdırmasını nəzərdə tutan satış növüdür. Salam Sukukunun sahibləri malın mülkiyyətçiləridir və bu da həmin malın növbəti satışı zamanı (paralel salam) yaranan gəliri mənimsəməyə hüquq verir. Salamın ilkin satıcı üçün üstünlüyü ondan ibarətdir ki, gəlirlərini əvvəlcədən əldə edir. İlkin alıcı üçün isə üstünlüyü ondan ibarətdir ki, bu müqavilə üzrə məhsulun qiyməti onun normal bazar qiymətindən aşağı olur. Salam kənd təsərrüfatı məhsullarının inkişafının stimullaşdırılması üçün çox əlverişlidir.

İstisna sukuku salamdan əsasən tikintisi tələb olunan məhsulların tranzaksiyası zamanı istifadə olunması ilə fərqlənir. Böyük tikinti proyektlərinin həyata keçirilməsi üçün çox əlverişlidir. Ərəb dövlətlərində də bu istiqamət üzrə geniş istifadə edilir.

Sukukların mövcudluğu artıq dünyanın müxtəlif yerlərindən nəhəng investorları cəlb edib. Sukuk vasitəsilə dünyanın müxtəlif yerlərində xüsusilə ərəb dövlətlərində böyük infrastruktur layihələri (körpülər, aeroportlar, şoselər, limanlar və s.) həyata keçirilir.

Qeyd edək ki, qlobal sukuk bazarı 2012-ci ildə 229 milyard dollardan 2021-ci ildə 775 milyard dollara çatıb. Son dövrlərdə isə 1 trilyon dolları ötüb. Sukuk bazarında orta hesabla illik 14,9 faiz inkişaf göstəricisi mövcuddur.

Yuxarıda da qeyd etdik ki, sukukun maliyyə aləti kimi çox geniş bir tətbiq sahəsi var. Azərbaycan iqtisadiyyatı isə hazırda investisiyalara kəskin ehtiyac duymaqdadır - dövlət investisiya qoyuluşları azalır, özəl investisiyalardakı artım tempi onu kompensasiya edə bilmir. Buna görə də islam maliyyə alətlərinin tətbiqi bu sahədə tələbatın ödənməsində mühüm rol oynaya bilər.

**Bank sahəsi üzrə mütəxəssis Əkrəm Həsənova görə, Azərbaycan İslam maliyyə alətlərinin tətbiqində xeyli gecikib:** "Müsəlman əhalisi olan ölkədə İslam qaydaları ilə investisiya etmək, vəsait əldə etmək istəyən şəxslər, biznes kifayət qədərdir. İndiyədək adi banklara vəsait qoymaq istəməyən insanların qazanc əldə etmək üçün öz vəsaitlərini hara yönəltdiklərini biz bilmirik, dövlət üçün də onları izləmək çətindir. İslam maliyyə alətləri bu sahədə şəffaflıq yaradacaq. Bu baxımdan, prosesin başlanması çox mühüm addımdır. Sukukun tətbiqindən başlanması isə gözlənilən və düzgün seçimdir, çünki ölkə iqtisadiyyatında investisiya ehtiyacları sürətlə artır. Onun tətbiqi ilə iqtisadiyyatın ən prioritet sahələrində böyük layihələrə vəsait cəlb etmək mümkündür. Sukukda əsas məsələ şəffaflıqdır: həm onu buraxan, həm də alan tərəf üçün".

**İqtisadçı Eldəniz Əmirova görə, sukuk dövlət-özəl tərəfdaşlığına əsaslanan layihələrin maliyyələşdirilməsi üçün effektiv alət ola bilər:** "Ona görə ki, sukukda investora konkret olaraq aktivin gəlirlərinə bağlıdır. Dövlət-özəl tərəfdaşlığı ilə enerji, yol, sənaye parkları kimi aktivlərə sukuk vəsaitəsilə vəsait cəlb etmək olar. Bu, dövlət və özəl sektorun riskləri bölüşməklə uzunmüddətli layihələr icra etməsinə şərait yaradar. Düşünürəm ki, sukukla ölkəmizə investisiya qoymağa daha çox ərəb investorları maraq göstərə bilərlər. Çünki onlar bu sahəni bilirlər, təcrübələri, özü də çox uğurlu təcrübələri var".

**Dünya SAKİT,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 181 (8791) 8 oktyabr 2025

# Etibarnamə ilə avtomobil idarə etmək dövrü bitir

## Ekspertin fikrincə, bu sistem mərhələli şəkildə ləğv olunmalıdır

**Azərbaycanda hələ də qüvvədə olan etibarnamə ilə avtomobil idarəetmə sistemi vətəndaşlar üçün əlavə vaxt itkisi, artıq xərclər və bürokratik çətinliklər yaradır. Ekspertlərin fikrincə, bu sistem həm də köhnəlmiş idarəçilik forması kimi artıq öz aktuallığını itirib.**

**Sabiq maliyyə naziri, professor Saleh Məmmədov** sosial şəbəkədəki paylaşımında bildirib ki, dünyanın 192 ölkəsində belə bir praktika çoxdan ləğv olunub: "Bir çox ölkələrdə avtomobil idarə etmək üçün sadəcə sürücülük vəsiqəsi və avtomobilin qeydiyyat sənədləri kifayətdir. Azərbaycan isə istisna olaraq hələ də etibarnamə tələb edir. Bu, vətəndaş üçün əlavə xərc və vaxt itkisinə səbəb olur".

Professorun sözlərinə görə, etibarnamə kimi formal prosedurların ləğvi və bütün əməliyyatların elektron hökumət platforması üzərindən həyata keçirilməsi həm vətəndaş, həm də dövlət üçün daha səmərəli olardı: "Bu cür ödənişlər və qeydiyyat prosesi birbaşa dövlət büdcəsinə yönəldilməlidir. Aralıq mərhələlərin çoxluğu həm şəffaflığı azaldır, həm də korrupsiya risklərini artırır".

Mövzu ilə bağlı danışan **nəqliyyat eksperti Eldəniz Cəfərov** hesab edir ki, fiziki şəxslər arasında etibarnamə sistemi artıq mənasını itirib: "Düşünürəm ki, bu sistem keçmişdə qalıb. Müasir dövrdə texnologiyalar, elektron imza və rəqəmsal xidmətlər etibarnaməyə ehtiyacı aradan qaldırır. Qanunvericilikdə bu istiqamətdə dəyişikliklərə ciddi ehtiyac var".

Ekspertin fikrincə, "Yol hərəkəti haqqında" Qanuna və İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilərək bu sistemin mərhələli şəkildə ləğvi nəzərdə tutulmalıdır.

Hazırda Azərbaycanda avtomobili başqa şəxsə idarə etmək üçün vermək istəyən sürücü notariusda etibarnamə təsdiqlətməlidir, bu da maddi xərc və vaxt itkisinə səbəb olur.

Yeni təkliflərə əsasən, gələcəkdə bu proses Daxili İşlər Nazirliyinin "ASAN Login" və ya "eGov" sistemləri üzərindən onlayn şəkildə həyata keçirilə bilər. Bu, həm vətəndaşların işini asanlaşdıracaq, həm də dövlət orqanlarının işini daha şəffaf edəcək.

**Nəqliyyat üzrə ekspert Elməddin Muradlı** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, hazırda etibarnamənin üstünlüyü qalmayıb. Onun sözlərinə görə, bu, 10-15 il bundan öncə daha aktual bir mövzu idi: "Çünki o dövrdə xüsusi texniki vasitələr çox deyildi və müəyyən çətinliklər var idi. Lakin bu gün texnologiya inkişaf edib, insanlar üztanıma kameralarından istifadə edirlər.

Elə bir sistem hazırlamaq lazımdır ki, maşını kim sürürsə, həmin gün sistemə informasiya ötürülsün və polis artıq sürücünün kimliyini bilsin. Onsuz da "E-Polis" xidməti vasitəsilə məlumat daha operativ şəkildə yönləndirilə bilir. Belə olan halda mən etibarnaməyə vaxt itirməyi mənasız bir iş kimi görürəm. Düşünürəm ki, etibarnamə kimlər üçünsə gəlir mənbəyidir, ona görə də onu ləğv etmirlər. Bizim təsəvvürümüzə, ağlımıza gəlməyən məbləğlərlə bağlı maraqlar var. Düşünürlər ki, insanlar bu pulu ödəyirsə, onu niyə ləğv edək. Halbuki ləğv etmək ciddi bir problem yaratmır. Avtomobilin texniki pasportu kimin əlindədirsə, deməli, maşını idarə etmək hüququ onundur".




**Ekspertin sözlərinə görə, cərimələrin kimin adına yazılması ilə bağlı anlaşılmazlıqlar yaşana bilər:** "Digər məsələ isə odur ki, cərimə texniki pasport kimə aiddirsə, onun adına yazılacaq. Həmin şəxs bu zaman etiraz edə bilər ki, həmin vaxt maşını o deyil, başqa adam sürüb. Belə olan halda o, bu barədə arayış verəcək ki, maşını kim idarə edib. Həmin şəxs də bunu təsdiq edəndən sonra cərimə ona yönləndiriləcək.

Təbii ki, Azərbaycan mentalitetində məsələ ilə bağlı müəyyən problemlər yarana bilər. Belə ki, maşın sahibinə yüksək cərimə yazılanda deyəcək ki, həmin vaxt maşını o idarə etməyib. Belə olan halda polis məcburdur ki, yazılan cərimələri bir-bir araşdırsın və şəkilləri yaxınlaşdırıb baxsın ki, həmin gün maşını kim idarə edib.

Almaniyada vətəndaş heç vaxt fikirləşmir ki, polisi aldatmaq olar. Fikirləşir ki, polis dövlət və hakimiyyətdir, ona yalan danışa bilməzsən. Bir sözlə, bu tip problemlər yarana və onun həlli vaxt apara bilər".

**E.Muradlının sözlərinə görə, etibarnamənin də yaratdığı çətinliklər var:** "Tutaq ki, 8 nəfərə maşının sürülməsi ilə bağlı etibarnamə verilir. Gün ərzində 8 nəfər sürür və cərimələr etibarnaməni alan axırıncı şəxsin adına yazılır. Bu hansı qərarla tənzimlənir bilinmir. O şəxs deyir ki, məndən öncə 7 nəfərin də etibarnaməsi var, cərimələr niyə onlara göndərilmir. Ona deyilir ki, kim sürübsə, məlumat ver. Şəxs idarəyə gedib ərizə yazır ki, filankəs sürüb. Hər şey həmin filankəsin vicdanından asılıdır. O, boynundan ata da bilər. Nəticədə çıxılmaz vəziyyətdə etibarnaməni sonuncu alan şəxs qalır. Etibarnamə, faktiki olaraq, etibarsız sənəd kimi problem yaradır.

Bəzən etibarnamə ilə maşın alırsan və bir müddət sonra satan şəxs həyat yoldaşı ilə boşananda məhkəmədə həmin maşın ortaq əmlak kimi müzakirəyə çıxarılır. Nəticədə onu sənin əlindən alıb, ər-arvad arasında bölürlər. Beləliklə, üçüncü şəxs kimi sən itirirsən.

Digər hal isə etibarnamə ilə maşın satan şəxsin ölümü ilə bağlı olur. Belə ki, maşını etibarnamə ilə satan şəxs vəfat edir və onu alıb illərlə idarə edən şəxs təzə etibarnamə almaq istəyəndə vəfat edənin ailəsi ilə problem yaşayır. Ona deyirlər ki, sənə yeni etibarnamə vermirik. Buna görə də etibarnaməyə etibarsız sənəd kimi baxıram".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# Təhsil krediti alanlar geri ödəyə bilmir - səbəblər

## Mütəxəssisin fikrincə, kredit sistemi gəlirə əsaslanan qaydada yenidən tənzimlənməlidir

**"Təhsil krediti ilə oxuyan məzunların 65 faizinin geri ödəməsi başlayıb. 35 faiz şəxsin geri ödəmə dövrü başlasa da, ödənişlərdə gecikmələr var".**

Bunu Təhsil Tələbə Krediti Fondunun (TTKF) İdarə Heyətinin sədri Bəhruz Əzimov deyib.

Onun sözlərinə görə, təhsil krediti ilə oxuyan məzunların 5890 nəfəri, yəni 44.16 faizi işləyir. 7447 nəfəri, başqa sözlə, 55.84 faizi işsizdir. İşsizlərin arasında 2023/2024-cü və 2024\2025-ci tədris ilinin məzunları da var və onların 2 il güzəşt dövrü davam edir.

Niyə krediti geri ödəyə bilmirlər, məvacib azlığı, yoxsa?

Mövzu ilə bağlı **təhsil mütəxəssisi Kamran Əsədov** "Yeni Müsavat"a danışıb. Mütəxəssis qeyd edib ki, kredit borcunun qaytarılması prosesində sosial təminat mexanizmləri yetərli deyil: "Təhsil krediti sistemi hər bir gəncin sosial vəziyyətindən asılı olmayaraq ali və orta ixtisas təhsili almaq imkanlarını genişləndirmək məqsədi daşıyır. Bu, sosial ədalətin təminində və insan kapitalının inkişafında mühüm addımdır. Lakin hazırda məzunların əhəmiyyətli hissəsinin təhsil kreditlərini geri qaytara bilməməsi həm iqtisadi, həm də struktur problemləri üzə çıxarır. Təhlil göstərir ki, əsas səbəblər əmək bazarının məzunların ixtisaslarına uyğun gəlməməsi, məvaciblərin azlığı və gəlirə əsaslanmayan ödəniş mexanizminin tətbiqidir. Təhsil krediti alan gənclərin çoxu təhsili bitirdikdən sonra əmək bazarında öz ixtisasına uyğun iş tapa bilmir və ya tapdığı işin aylıq maaşı borcu ödəməyə imkan vermir. Dövlət Statistika Komitəsinin 2024-cü il hesabatına əsasən, ali təhsil müəssisələrini bitirən gənclərin orta aylıq gəliri 720 manat civarındadır. Halbuki kredit ödənişləri ayda 150-200 manat aralığında dəyişir ki, bu da gəlirin dörddə birinə bərabərdir. Bu vəziyyət kreditin qaytarılmasını çətinləşdirir və sosial gərginlik yaradır.



Elm və Təhsil Nazirliyinin bu istiqamətdə gördüyü işlər Təhsil Tələbə Krediti Fondunun yaradılması, aşağı faizli kreditlərin tətbiqi, 2 illik güzəşt dövrünün müəyyən edilməsi, sosial və standart kredit modellərinin hazırlanması çox mühüm və mütərəqqi addımlardır. Bu, təhsilin maliyyə əlçatanlığını artırmaqla yanaşı, tələbələrin təhsildən kənarda qalmasının qarşısını alır. Müsbət hal odur ki, kredit alma prosesi elektronlaşdırılıb, şəffaf meyarlarla həyata keçirilir və təhsilin maliyyələşdirilməsində dövlətin sosial məsuliyyətini artırır. Amma bu mexanizmin davamlı olması üçün yalnız kreditin verilməsi yox, onun real iqtisadi şəraitə uyğun şəkildə geri qaytarılması sistemi də mükəmməlləşdirilməlidir".

**Kamran Əsədov bildirib ki, inkişaf etmiş ölkələrdə təhsil kreditləri gəlirə əsaslanan mexanizmlə tənzimlənir**: "Böyük Britaniyada məzun yalnız illik gəliri 27 000 funtu keçəndə ödənişə başlayır. Avstraliyada bu hədd 50 000 dollar, Kanadada isə 25 000 dollar civarındadır. ABŞ-də "İncome-Driven Repayment Plan" sistemi tətbiq olunur və məzun gəlirinin 10-15 faizindən çoxunu ödəməyə məcbur edilmir. Bu modellərin əsas məqsədi gəncin əmək bazarına tam daxil olmadan borc yükü altına düşməməsini təmin etməkdir. Azərbaycanda isə bu mexanizm gəlirə əsaslanmır, kreditin ödənişi sabit cədvəl üzrə tənzimlənir. Bu, sosial baxımdan ədalətsiz nəticə doğurur.

Mənfi tərəflərdən biri odur ki, kredit sistemi təhsilə çıxışı təmin etsə də, məzunların iqtisadi müstəqilliyi təmin olunmadığı üçün bu proses yarımçıq qalır. İqtisadi baxımdan zəif ailələrdən gələn gənclər borcu ödəməkdə çətinlik çəkdikləri üçün yeni təhsil imkanlarına da yönələ bilmirlər. Bu, bir növ sosial dövriyyəsizlik yaradır. Amma eyni zamanda qeyd etmək lazımdır ki, bu mexanizm ölkədə təhsilin sosial yönümlü maliyyələşmə modelinin formalaşmasına təkan verib. Elm və Təhsil Nazirliyinin bu sahədə apardığı işlər, xüsusən özəl sektorla əməkdaşlıq və karyera dəstəyi tədbirləri, gələcəkdə məzunların işlə təminat səviyyəsini artırmaq baxımından çox vacibdir".

**Mütəxəssisin fikrincə, bu prosesin uğurlu olması üçün kredit sistemi gəlirə əsaslanan qaydada yenidən tənzimlənməlidir:** "Kreditin qaytarılması yalnız məzunun sabit gəliri olduqda aktivləşdirilməli, işsiz və ya azgəlirli gənclər üçün əlavə güzəştlər tətbiq olunmalıdır. Bununla yanaşı, Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə universitetlərdə karyera mərkəzlərinin fəaliyyəti gücləndirilməli, işəgötürənlərlə əlaqələr sistemətikləşdirilməlidir. Əgər bu istiqamətlərdə mexanizmlər təkmilləşdirilsə, təhsil krediti mexanizmi yalnız təhsil almaq üçün deyil, həm də sosial rifah və məşğulluq siyasətinin effektiv alətinə çevriləcək.

Hesab edirəm ki, təhsil krediti sistemi Azərbaycanda sosial təhsil siyasətinin ən mühüm yeniliklərindən biridir. Elm və Təhsil Nazirliyinin bu sahədə atdığı addımlar təhsilə bərabər çıxışı təmin etmək baxımından təqdirəlayiqdir. Lakin bu sistemin tam işlək olması üçün iqtisadi reallıqlara uyğunlaşdırılmış, gəlirə əsaslanan ödəniş mexanizmi tətbiq edilməli və gənclərin əmək bazarına inteqrasiyası gücləndirilməlidir. Əgər bu dəyişikliklər həyata keçirilsə, təhsil krediti modeli həm sosial, həm iqtisadi, həm də təhsil baxımından ölkənin inkişaf strategiyasının dayanıqlı elementi olacaq".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

Yeni Müsavat
N 181 (8791) 8 oktyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**İşğaldan azad etdiyimiz Qarabağ torpaqlarında hazırda əsas diqqətlər həm də 30 ilə yaxın müddətdə məcburi köçkün həyatı yaşayanların öz dədə-baba torpaqlarına köçürülməsinə yönəlib. 2022-ci ilin noyabrında Prezident İlham Əliyevin Sərəncamına əsasən qəbul edilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" son 3 ildə uğurla icra olunmaqdadır. Artıq qısa zaman ərzində görülən işlərin nəticəsi olaraq 50 mindən çox insan azad edilmiş torpaqlara geri qayıdıb.**




# Azad Cəbrayılın beş ili...

## Deputat qarşıdakı illərdə görüləcək işləri sadaladı; 2040-cı ildə...

Bu da çox böyük uğur sayılır. Çünki Azərbaycan dövləti öz şəxsi hesabı ilə, kənardan heç bir yerdən yardım almadan erməni terrorçuları tərəfindən tamamən dağıdılmış ərazilərini yenidən qurur. Bu yolda milyardlarla manat vəsait xərclənir. İndiyə qədər 20 milyard manatdan çox vəsait sərf olunub. Təkcə bu il üzrə Qarabağda təmir-bərpa, quruculuq işlərinə 4 milyard vəsait dövlət büdcəsindən ayrılıb. Bu da kifayət qədər böyük rəqəm sayılmalıdır.

Qeyd edək ki, 2020-ci ildəki 44 günlük Vətən müharibəmizdə işğaldan azad edilən ilk şəhərimiz Cəbrayıl oldu. Döyüşlərin tam olaraq 8-ci günündə, yəni oktyabrın 4-də şanlı Azərbaycan bayrağı bu şəhərin mərkəzinə sancıldı. Ali Baş Komandanın sərəncamı ilə təsis edilən şəhər günləri çərçivəsində oktyabrın 4-də ölkəmizdə Cəbrayıl günü kimi qeyd olunur. Cəbrayıl "Böyük Qayıdış" proqramına əsasən, məcburi köçkünlərdən ibarət köç karvanlarının ən çox yola salındığı Qarabağ torpaqlarından biridir. İlk köç karvanı 2024-cü ilin 26 sentyabrında Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu vaxta kimi Cəbrayıla 659 ailə - 2856 nəfər köçürülüb.

**Milli Məclisin deputatı Səbinə Salmanova** "Yeni Müsavat"a dedi ki, hazırda digər azad edilən ərazilərdə olduğu kimi, Cəbrayıl rayonunda da bərpa-quruculuq işləri çox sürətlə gedir: ""Araz Vadisi İqtisadi Zonası"nın yaradılması bütün regionun, o cümlədən Cəbrayıl rayonunun inkişafı üçün önəmli hadisədir. Sözügedən layihə 200 hektarı əhatə edən böyük bir layihədir. Artıq Sənaye Parkının rezidentlərinin sayı 12-yə çatıb. Cəbrayıl rayonunun elektrik təchizatı artıq var. Bundan əlavə, Cəbrayıla 4-6 zolaqlı yol çəkilir. Cəbrayıla gələn vətəndaşlar rahat gələcək və buradan keçən Zəngəzur dəhlizindən istifadə edəcəklər. Rayonun bütün kəndlərinin tədricən bərpa edilməsi proqramı da təsdiq edildi. Təsdiqlənmiş baş plana əsasən, Böyük Mərcanlı kəndinin ümumi sahəsi 362 hektar təşkil edir. 2040-cı ildək 6230 nəfər əhali üçün 1074 fərdi ev və bir neçə mərtəbəli yaşayış binaları layihələndirilib. Böyük Mərcanlı kəndində əhalinin tələbatına uyğun olaraq iki məktəb və beş uşaq bağçası inşa olunacaq. 2026-cı ildək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi 41 hektardır. Bu mərhələdə Böyük Mərcanlıya 542 nəfərin köçürülməsi üçün 149 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq. Cəbrayıl rayonunun inzibati ərazisinə daxil olan Karxulu kəndi şimaldan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, cənubdan və cənub-şərqdən Horadiz-Ağbənd dəmir yolu xətti ilə əhatə olunub. Cəbrayıl rayonunun Sarıcallı kəndi şimaldan yeni salınan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, şimal-şərqdən Şükürbəyli kəndi, cənubdan və cənub-şərqdən Horadiz-Ağbənd dəmir yolu xətti, qərbdən Soltanlı kəndi ilə əhatə olunub. Cəbrayıl rayonunun Maşanlı kəndinin 2040-cı ilədək layihələndirilən ərazisi 157,54 hektar olacaq. Yuxarıda qeyd olunan kəndlər də baş plana əsasən, məktəblər, fərdi evlər və binalar, parklar, xəstəxanalar və digər lazımlı binalarla təmin olunacaq".




**Əslən Cəbrayıldan olan AĞ Partiya başqanının müavini Rəhim Əhmədzadə şəhərin mərkəzinin tam bərpa olunduğunu söylədi:** "Uzun illər doğma torpaqlarımız işğal altında qaldı. O illərdə biz ata-baba yurdumuzun həsrətini çəkdik. Hər zaman ümid edirdik ki, bir gün Cəbrayıla qayıdacağıq.

2020-ci ildə qəhrəman Azərbaycan Ordusu torpaqlarımızı azad etdi. Bu, hər bir cəbrayıllının, hər bir azərbaycanlının ən böyük sevinc günü idi. Çünki biz torpağımıza, tariximizə, köklərimizə qovuşduq.

İndi Cəbrayıl yenidən qurulur. Yeni yollar, məktəblər, evlər tikilir. İnsanlar doğma kəndlərinə qayıdır. Artıq Cəbrayıl rayonunun mərkəzində yaşayış tam bərpa olunub. Elə bu yaxınlarda öz ailə üzvlərimlə doğma Qarabağıma və torpağım Cəbrayıla getdim. Öz həyətimizə daxil olanda uşaqlıq xatirələrim gözlərimin önündə canlandı. Divarları dağılsa da, həyətin torpağı hələ də isti idi. Mən hər dəfə o torpağa ayaq basanda qəlbimdə böyük bir qürur və sevinc hiss edirəm. Hiss edirəm ki, sanki torpaq məni tanıyır, mən də bu torpağa aidəm. Bir gün ata-baba yurduma qayıdıb orada daimi yaşamaq, torpağımda nəfəs almaq istəyirəm. Cəbrayıla qayıdış mənim üçün sadəcə evə dönüş deyil. Bu, qürurdur, vətən sevgisidir, azadlığın dəyərini anlamaqdır. Cəbrayıl ən çox dağıntıya məruz qalmış rayonlardandır. Ən böyük arzum Cəbrayılın yenidən çiçəklənməsini görməkdir".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI**

# Sülh sənədinə etimadsızlıq yaratmaq kampaniyası

## Deputat: "Anti-Azərbaycan dairələrin tulası rolunu həyata keçirən Köçəryanın..."



**Ermənistanın sabiq prezidenti Robert Köçəryan İrəvanda mətbuat konfransı keçirərək 8 avqustda Vaşinqtonda imzalanmaış sənədlərə qarşı yeni hücuma başlayıb. O bildirib ki, Ermənistan bu sənədlərdən heç nə qazanmır: "Avqustun 8-də Vaşinqtonda imzalanan sənədlərdən tərəflər nə qazandı? Birincisi, ABŞ gələcəkdə formalaşacaq dəhliz üzərində konkret nəzarəti əldə etdi; ikincisi, Ermənistan-İran sərhədinə effektiv nəzarət etmək imkanı; üçüncüsü, prezidentin Nobel mükafatına namizədliyini irəli sürmək imkanı. Azərbaycan Ermənistan ərazisindən keçməklə dəhliz hüququ aldı, Minsk Qrupunun buraxılması, 907 saylı qətnamənin ləğvi. Bəs Ermənistan nə qazandı? Düzünü desəm, mən bu sənədlərdə Ermənistanın nə qazandığı ilə bağlı hər hansı konkretlik tapmağa çalışdım? Heç nə. Yalnız problemlər". Və nəhayət, Nikol Paşinyan nə aldı? Burada çox konkret bir şey var. O, prezident Trampın imzası olan şəkil və heç bir hüquqi qüvvəsi olmayan kağız parçası alıb və erməni xalqını növbəti dəfə aldatmağa imkan verib. İlkin nəticəyə gəlmək olar ki, Nikol Paşinyan Ağ Evdə dayaq kimi olub. Orada stol, stul, tablo, bayraq var idi, Paşinyan da orada idi".**

Keçmiş prezident "initializasiya" terminindən danışarkən deyib: "İki tərəf sənədlə bağlı danışıqlar aparan zaman razılığa gələn komandalar onu paraflayır. Bu, texniki hərəkətdir. Başlanğıc sənədlər sonradan müəyyən hallarda, məsələn, dövlət başçılarının rəsmi səfərləri zamanı paraflanır, paraflanmış sənədlər imzalanır".

"Mən heç anlamıram ki, dövlət başçılarının iştirakı ilə paraflama nə deməkdir? Əgər razılaşma varsa, o zaman bu sənədləri imzalamaq üçün bundan yaxşı imkan yoxdur. Bu, həqiqətən də məzmunla bağlı suallar yaradır", - eks-prezident bildirib.

**Milli Məclisin deputatı Aydın Hüseynov "Yeni Müsavat"a bildirdi ki, Robert Köçəryan 8 avqustda Vaşinqtonda imzalanan sənədləri erməni cəmiyyətinin gözündən salmaq, həmin sənədlərə etimadsızlıq yaratmaq məqsədilə bu fikirləri səsləndirib:** "Həmişə Rusiyadakı anti-Azərbaycan dairələrin tulası rolunu həyata keçirən Köçəryanın ötən həftə Moskvaya gizli səfər etdiyi və görüşlər keçirdiyi barədə xəbər yayılmışdı. Görünür, Köçəryan 8 avqust Vaşinqton razılaşmalarına qarşı hərəkətə keçmək sifarişi ilə geri qayıdıb. O, Paşinyanı masa və digər əşyalarla müqayisə edərək həm də ələ salıb təhqir etməkdən də çəkinməyib. Ermənistan dövlətini və xalqını uçurumun dibinə yuvarladan Robert Köçəryan öz xalqını yenə də aldatmağa və keçmişdəki zərərli fəaliyyətini davam etdirməyə çalışır. O, həyasızcasına deyir ki, Vaşinqtonda 8 avqustda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin imzaladığı sənədlərdən, sülh sazişinin paraflanmasından Ermənistan heç nə qazanmır və qazanmayacaq. Əvvəla, bununla Xocalı canisi sülhə qarşı olduğunu, Ermənistanı yenə də müharibəyə sürükləməkdə qərarlılığını yenidən açıq şəkildə ortaya qoyur. Ermənistan əhalisi bu müharibə canisinin onları yenidən məhvə doğru aparmaq istəyinin baş tutmaması üçün onu daş-qalaq edib ölkədən qovmalıdır. Yaxud da Nikol Paşinyan Köçəryanın erməni xalqı və sülh üçün təhlükə yaratdığını əsas göstərib onun həbs edilməsinə nail olmalıdır".

**Deputatın fikrincə, Robert Köçəryan uzun illər hakimiyyətdə olanda erməni xalqını aldatdığı, mağmın yerinə qoyduğu kimi indi də bunu etməyə çalışır:** "Sülhdən, kommunikasiyaların açılmasından, xüsusən Zəngəzur yolunun açılmasından Ermənistan dövlətinin çox böyük iqtisadi, həmçinin siyasi qazanclarının olacağı bəllidir. Bunu Robert Köçəryan da bilməmiş deyil. Ancaq bunu bilə-bilə xalqın gözünün içinə yalan danışaraq erməni cəmiyyətini "heç bir qazancımız olmayacaq" fikri ilə aldadır".

**Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
Son səhifə
N 181 (8791) 8 oktyabr 2025
Oktyabr

## Bunları bilirsinizmi?

* Yuxusuzluq şikayəti ilə həkimə müraciət edən insanların IQ səviyyəsinin normadan yüksək olduğu müşahidə edilir.
* İnsanlar yuxuladığı zaman qoxu ala bilmirlər.
* Niaqara şəlaləsindən düşüb sağ qala bilən ilk insan Bobbi Liç evdə portağal qabığına basaraq yıxılmış və daxili qanaxma səbəbilə dünyasını dəyişmişdir.
* Dəniz atı dünyanın ən sədaqətli canlısıdır. Çünki həyat yoldaşı öldükdən qısa bir müddət sonra o da ölür.
* İnsan ildə ən az 1460 ədəd yuxu görür.
* "Karaoke" sözü yapon dilində "quru orkestr" sözünün qısaldılmasıdır. "Kara" yapon dilində boş deməkdir.
* Ördəyin səsi əks-səda vermir.
* Ən böyük quş yumurtası dəvəquşunundur. Yumurta 15-20 santimetr uzunluğunda və ortalama 1,7 kiloqram ağırlığındadır. Qaynadılaraq bişirilməsi isə 40 dəqiqə çəkir.
* Ən ağıllı heyvanlardan biri olan qarğalar insanlar kimi yaşlı valideynlərini illər sonra gedib ziyarət edirlər.
* Ağcaqanadlar əllərini ovuşdurub başlarından keçirmə hərəkətini uçarkən əllərinə yapışan molekulaları təmizləmək məqsədilə edirlər.

# Dünyada elektron siqaret çəkənlərin sayı açıqlandı



**Dünyada 100 milyondan çox insan veyp (elektron siqaret) istifadəçisidir və onların ən azı 15 milyonu 13-15 yaşlı yeniyetmələrdir. Bu rəqəmlər Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 2000-2024-cü illəri əhatə edən tütün istehlakı tendensiyalarına dair yeni hesabatında təqdim olunub. Hesabatda qeyd edilir ki, elektron siqaret istifadəçilərinin böyük əksəriyyəti yüksəkgəlirli ölkələrdə yaşayır. Tədqiqat fərqli əhali kateqoriyaları arasında keçirilmiş 2 000-dən çox sorğunun nəticələrinə əsaslanır.**

## 3 yaşlı uşağın boğazından 19 maqnit çıxarıldı



**Türkiyənin Elazığ bölgəsində 3 yaşlı uşaq əməliyyatla udduğu 19 maqnitdən xilas edilib. Hadisə Ərzurumda baş verib. Evdə oyun oynayan uşaq maqnitləri udub və vəziyyəti pisləşərək xəstəxanaya çatdırılıb. Endoskopik əməliyyatla maqnitlər uşağın boğazından çıxarılıb. Maqnitlərin bir-birinə yapışdığı və qida borusunu tıxadığı müəyyən edilib. Prof. Dr. Doğan əməliyyatın mədəyə xüsusi mesh qoyularaq həyata keçirildiyini və uşağın səhər ümumi vəziyyəti yaxşılaşdıqdan sonra evə buraxıldığını bildirib.**

## Alimlərdən maraqlı kəşf: Uranın peykinin buzları altında qədim okeanın izləri aşkar edildi

**Alimlər Uran planetinin beş böyük peykindən biri olan Arielin buzları altında diametri təxminən 1 159 km olan qədim okeanın izlərini aşkar ediblər. Bu barədə "ScienceDirect" elmi portalı araşdırmaya istinadən məlumat yayıb. Məqalədə bildirilib ki, Arieldə okeanın izinin olması fikri "Voyager-2" kosmik aparatı tərəfindən əldə edilən görüntülərin təhlilinə əsaslanır. Bu görüntülərdə geoloji xüsusiyyətlər kriovulkanizm və tektonik fəaliyyətlə əlaqələndirilir.**

Tədqiqat zamanı beynəlxalq alimlər qrupu qədim buzaltı okeanın dərinliyinin təxminən 170 km-ə çatdığını müəyyən edib. Bu, Sakit okeanın orta dərinliyi olan 4 km ilə müqayisədə əhəmiyyətli fərq təşkil edir. Materialda həmçinin qeyd olunub ki, geoloji analiz və qabarma gərginliklərinin modelləşdirilməsi göstərir ki, son dövrlərdə Arielin səthinin altında okean mövcud olub.

## 3 kq jelibon yedi, reanimasiyaya düşdü



**Üç kiloqram marmelad yeyən kişi xəstəxanaya yatırılıb. Böyük Britaniyada yaşayan Natan Riminqton üç gün ərzində təxminən üç kiloqram marmelad ayıcıq ( "Jelibom" ) yedikdən sonra təcili tibbi yardıma müraciət edib.**

Bu barədə Oddity Central xəbər yayıb. Məlumata görə, o, "Amazon"dan 3 kiloqramlıq marmelad bağlaması sifariş edib və qısa müddətdə təxminən 10 min kilokalori dəyərində şirniyyat qəbul edib. Bundan az sonra kişidə kəskin qarın ağrısı, tərləmə və halsızlıq yaranıb. Xəstəxanada ilkin olaraq qida zəhərlənməsi ehtimalı irəli sürülüb, lakin analizlər həddindən artıq jelatin miqdarı aşkar edib.

Həkimlər qeyd ediblər ki, jelatin və ağır tərkibli qidaların normadan artıq qəbulu bağırsaq keçməzliyi və iltihab kimi ciddi fəsadlara səbəb ola bilər. Riminqton altı gün reanimasiyada saxlanılıb, bu müddətdə o, yalnız damar yolu ilə müalicə alıb və yemək yeməsinə icazə verilməyib. Hazırda vəziyyəti stabildir.

## Altsheymer xəstəliyinin ən başlıca risk amili



**Piylənmə Altsheymer xəstəliyinin inkişafına təsir göstərən ən güclü risk amilidir. Hyuston Metodist Akademik İnstitutunun neyrodegenerativ xəstəliklər üzrə eksperti Stiven Vonq bildirib ki, artıq çəki ilə beyin fəaliyyətinin pisləşməsi arasındakı əlaqə əvvəllər də sübuta yetirilib. Lakin yeni tədqiqatlar göstərib ki, piylənmə koqnitiv bacarıqları siqaretçəkmə, diabet və ya yüksək təzyiqlə müqayisədə daha güclü zəiflədir. Alimlər bədən çəkisi normal olan və piylənmədən əziyyət çəkən insanlarda əldə edilmiş piy tərkibli molekulları (lipidləri) müqayisə ediblər. Məlum olub ki, çəki artıq olanda müəyyən tip lipidlər Altsheymer xəstəliyinə xas olan zülal topacıqlarının – amiloid düyünlərinin əmələ gəlməsini sürətləndirir.**

Amiloid düyünləri neyronların məhvinin bilavasitə səbəbi olmasa da, toxumaları məhv edən prosesləri işə salır.

## Beyin yaşlandıqca "daxili kompası"nı itirir



**Stenford Tibb Mərkəzinin (ABŞ) alimləri müəyyən ediblər ki, insan yaşlandıqca, onda ətraf mühitin "daxili xəritəsi"nin yaradılmasına məsul olan neyron şəbəkələrinin fəaliyyəti pozulur. Alimlərin fikrincə, yaşlı insanların məkanda istiqamətlənmək qabiliyyətinin pisləşməsi məhz bu faktla bağlıdır.**

Oxu.Az xəbər verir ki, araşdırmanın nəticələri "Nature Communications" jurnalında dərc edilib.

Tədqiqat üçün alimlər üç qrup siçovulun - cavan (təqribən 20 yaş insan standartına uyğun), orta yaşlı (50-60 yaş) və ahıl (75-90 yaş) beyin fəaliyyətini müqayisə ediblər.

Onlar beyinin neyron şəbəkələrinin yerləşdiyi nahiyəsinin - medial entorial qabığın fəallığını tədqiq ediblər. Bu hüceyrələr məkanın müəyyən nöqtələrində aktivləşir və beyinin GPS sistemi funksiyasını yerinə yetirir.

Nəticələr göstərib ki, yaşlandıqca neyron şəbəkələrinin fəaliyyəti stabilliyini itirir. Virtual mühitdə marşrut dəyişəndə ahıl siçovulların neyron siqnalları davranışları kimi xaotik olur. Halbuki cavan və orta yaşlı siçovullar məkanda obyektin yerini çevik şəkildə müəyyən edə bilirlər və daha aydın beyin fəaliyyəti nümayiş etdiriblər.

Beyin funksiyasının zəifləməsi bütün ahıl siçovullarda eyni dərəcədə müşahidə edilməyib. Məsələn, bəzi ahıl siçovullar cavan siçovullardan geri qalmayıb. Bu, neyron şəbəkələrinin dəqiqliyi ilə məkanda istiqamətlənmək bacarığı arasındakı əlaqəni təsdiqləyir.

Genetik analiz 61 genin fəallıq səviyyəsinin neyron şəbəkələrinin funksiyasından əziyyət çəkən siçovullardan fərqləndiyini göstərib. Bu genlərdən biri olan "Hapln4" hüceyrələrin ətrafındakı qoruyucu zülal şəbəkəsinin formalaşmasını təmin edərək onların sabitliyini qoruyur.

Müəlliflər qeyd edirlər ki, məkan yaddaşının yaşla əlaqədar pisləşməsi qaçılmazdır, lakin beyinin necə qocalması fərdi xüsusiyyətlər və genetik fərqlərdən asılıdır.

## Hindistanda öskürək əleyhinə sirop qəbul edən 14 uşaq ölüb

**Hindistanın Madhya-Pradeş ştatında öskürək əleyhinə sirop qəbul edən azı 14 uşaq ölüb. Bildirilib ki, dərmanın tərkibində həddindən artıq miqdarda dietilen qlikol aşkarlanıb. Sirop istehsalçısı "Sresan Pharmaceuticals" şirkətinə qarşı cinayət işi qaldırılıb. Qeyd edək ki, dietilen qlikol siropda əsas həlledici maddə olan propilen qlikolun daha ucuz, amma toksik əvəzedicisidir.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500